AZƏRBAYCAN HƏMKARLAR İTTİFAQLARI KONFEDERASİYASI

# Ülfət

AZƏRBAYCAN HƏMKARLAR İTTİFAQLARININ QƏZETİ

QƏZET 1991-Cİ İLDƏN ÇIXIR

CÜMƏ AXŞAMI, 10 FEVRAL 2022-Cİ İL / № 05 (1272)

WWW.ULFET-AZ.COM / ULFET-AZ@MAIL.RU




## Prezident İlham Əliyev yenidən qurulan 330 kilovoltluq "Yaşma" qovşaq yarımstansiyasının açılışında iştirak edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yenidən qurulan dövlətlərarası strateji əhəmiyyətə malik 330/220/110/10 kilovoltluq "Yaşma" qovşaq yarımstansiyasının açılışında iştirak edib.**

**"Azərenerji" ASC-nin prezidenti Baba Rzayev dövlətimizin başçısına görülən işlər barədə məlumat verdi.**

**Prezident İlham Əliyev yarımstansiyanı işə saldı.**

## Naxçıvan Muxtar Respublikasının 98 illiyi münasibətilə tədbir keçirilib



**Fevralın 9-da Naxçıvanın Bakıdakı daimi nümayəndəliyində Naxçıvan Muxtar Respublikasının təşkil olunmasının 98-ci ildönümünə həsr olunmuş "Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir" adlı dəyirmi masa keçirilib.**

**Əvvəlcə tədbir iştirakçıları ümummilli lider Heydər Əliyevin, Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda şəhid olmuş Vətən övladlarının əziz xatirəsini birdəqiqəlik sükutla yad edərək, dahi Liderə və bütün şəhidlərimizə dərin hörmət və ehtiramlarını bildiriblər.**

Sonra Naxçıvan Muxtar Respublikasının tarixi ilə bağlı videoçarx nümayiş etdirilib.

Tədbirdə daimi nümayəndəliyin rəhbəri Bəxtiyar Əsgərov qədim, zəngin, çoxəsrlik tarixə, mədəniyyətə, dövlətçilik ənənələrinə malik və "Şərqin qapısı" adlandırılan Naxçıvanın keçdiyi mürəkkəb və çətin, eyni zamanda şərəfli tarixi inkişaf yolundan bəhs edib.

**Tədbirdə Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev də çıxış edib. O, Naxçıvanın blokada şəraitində olmasına baxmayaraq, ulu öndər Heydər Əliyevin buranı inkişaf etdirməsindən, Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində müasir Naxçıvan şəhərinin bütün sferalarda inkişafından danışıb.**

## Əmək pensiyaçılarının sosial müdafiəsi sahəsində əlavə tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

**Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Əhalinin sosial rifahının qorunması sahəsində əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 16 oktyabr tarixli 2965 nömrəli Sərəncamının icrası olaraq əmək pensiyaçılarının sosial müdafiəsini gücləndirmək, COVID-19 pandemiyasının, habelə beynəlxalq bazarlardakı proseslərin ölkədaxili qiymətlərə sirayət etməsinin əmək pensiyaçılarının sosial rifahına mənfi təsirlərini yumşaltmaq, həmçinin postmüharibə dövründə xüsusi əhali qruplarına dövlət qayğısını artırmaq məqsədilə qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi:

**1.1.** 2022-ci il yanvarın 1-nə 2021-ci il üzrə Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin müəyyən etdiyi:

**1.1.1.** orta aylıq nominal əməkhaqqının illik artım tempinə uyğun olaraq 2022-ci il yanvarın 1-dək təyin edilmiş bütün növ əmək pensiyalarının sığorta hissəsinin;

**1.1.2.** istehlak qiymətləri indeksinin illik səviyyəsinə uyğun olaraq fərdi uçot sistemində fərdi hesabların sığorta hissəsində 2022-ci il yanvarın 1-dək qeydə alınmış pensiya kapitalı məbləğlərinin indeksləşdirilməsini həyata keçirsin;

**1.2.** bu Sərəncamın 1.1-ci bəndində nəzərdə tutulmuş indeksləşdirməyə əlavə olaraq, 2022-ci il yanvarın 1-dək pensiya təyin edilmiş əmək pensiyaçılarına (qulluq stajına görə əlavələr alan əmək pensiyaçıları istisna olmaqla) 2022-ci il üzrə 200 (iki yüz) manat məbləğində maddi yardımın bərabər hissələrlə rübdə bir dəfə olmaqla ödənilməsini təmin etsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

**2.1.** bir ay müddətində:

**2.1.1.** bu Sərəncamın 1.2-ci bəndində nəzərdə tutulan maddi yardımın 2023-cü il yanvarın 1-dən etibarən onun şamil edildiyi əmək pensiyaçılarının illik pensiyalarının tərkibinə daxil edilməsinə dair təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

**2.1.2.** qulluq stajına görə əlavə alan əmək pensiyaçılarının əmək pensiyalarının indeksləşdirilməklə artırılması mexanizminə, habelə həmin şəxslərə 2022-ci ildə maddi dəstək göstərilməsinə dair təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

**2.1.3.** bu Sərəncamın 1.2-ci bəndində nəzərdə tutulmuş maddi yardımın dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşdirilməsi üçün tədbirlər görsün;

**2.1.4.** bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 8 fevral 2022-ci il**

## *Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyevə*

**Hörmətli Səttar müəllim!**

**Bildiyiniz kimi, 4 mart 2021-ci il tarixində Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası (AHİK) arasında sosial cəhətdən həssas əhali qruplarının özünüməşğulluğunun təşkilinə köməklik göstərilməsi sahəsində əməkdaşlığa dair memorandum imzalanmışdır.**

Sözügedən memorandumun imzalanması zamanı sosial cəhətdən həssas qrupların özünüməşğulluğuna dəstək məqsədilə AHİK tərəfindən 200.000 (iki yüz min) manat vəsait ayrılmışdır. Əməkdaşlığımız nəticəsində 27 nəfər işsiz şəxsin özünüməşğulluğa cəlbi həyata keçirilmişdir.

Məlumat üçün bildirək ki, aktivlərlə təmin olunmuş 27 nəfər işsiz şəxsdən 14 nəfəri qazi və şəhid ailəsi üzvüdür.

**Sosial cəhətdən həssas əhali qruplarının özünüməşğulluğuna dəstək verdiyiniz üçün Sizə öz dərin minnətdarlığımızı bildirir və əməkdaşlığımızın davam edəcəyinə ümid edirik.**

**Sahil BABAYEV,**
**Əmək və Əhalinin Sosial Müdafiəsi naziri**

## COVID-19 infeksiyasına son sutkada 7779 yoluxma faktı qeydə alınıb

**Azərbaycanda yeni növ koronavirus (COVID-19) infeksiyasına son sutkada 7779 yoluxma faktı qeydə alınıb, 6315 nəfər müalicə olunaraq sağalıb.**




Nazirlər Kabineti yanında Operativ Qərargahdan verilən məlumata görə, analiz nümunələri müsbət çıxan 28 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 718 min 145 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 660 min 112 nəfər müalicə olunaraq sağalıb, 8 min 948 nəfər vəfat edib. Aktiv xəstə sayı 49 min 85 nəfərdir.

**Son sutkada yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 19 min 314, bu günə qədər isə ümumilikdə 6 milyon 316 min 102 test icra olunub.**

**Şuşa Bəyannaməsi** gələcək dərsliklərə yazılacaq mühüm tarixi hadisə
BAX SƏHİFƏ: 3

*Səttar Möhbalıyev: "Cənub Qaz Dəhlizi dövlətimizin enerji siyasətinin məntiqi nəticəsidir"*
BAX SƏHİFƏ: 2

*Azərbaycanda vətəndaş cəmiyyətinin inkişafında həmkarlar ittifaqlarının rolu*
BAX SƏHİFƏ: 5

**Hüquq məsləhətxanası**



BAX SƏHİFƏ: 8

Həmkarlar ittifaqına üzv ol - iş yerinə təminat al!

*(Əmək Məcəlləsinin 80-ci maddəsinə əsasən, işəgötürən həmkarlar ittifaqı üzvünü bu təşkilatın razılığı olmadan işdən azad edə bilməz)*

**Beynəlxalq**

*Sağlamlıq və təhlükəsizlik birinci dərəcəli prioritet olmalıdır*
BAX SƏHİFƏ: 7



# SƏTTAR MÖHBALIYEV: “Cənub Qaz Dəhlizi dövlətimizin enerji siyasətinin məntiqi nəticəsidir”

**“Avropanın, o cümlədən dünyanın enerji təhlükəsizliyinin təmin olunmasında Azərbaycanın reallaşdırdığı iri layihələr ölkəmiz tərəfindən müəyyənləşdirilmiş enerji siyasətinin effektli nəticəsini bir daha təsdiqləyir. Bu istiqamətdə görülən işlər artıq ölkəmizin regional və beynəlxalq səviyyədə nüfuzunu artırmaqdadır. Cənub Qaz Dəhlizi layihəsi də bu qəbildəndir. Belə ki, layihə bu gün Avropanın üzləşdiyi qaz böhranının aradan qaldırılmasında əsas pay sahibi kimi çıxış etməklə ölkəmizin bu sahədə rolunu daha da artırır. Layihənin icrası həmçinin iştirakçı dövlətlər arasında əməkdaşlığın inkişafına və regionda təhlükəsizliyin təmin olunmasına mühüm töhfələr verir”.**

**Bu fikirləri Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının (AHİK) sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev deyib.**

Onun sözlərinə görə, Bakıda keçirilən Cənub Qaz Dəhlizi Məşvərət Şurasının çərçivəsində nazirlərin 8-ci toplantısında Avropa İttifaqının komissarlarının, ABŞ, Böyük Britaniya, Türkiyə, Gürcüstan, İtaliya, Yunanıstan, Bolqarıstan, Albaniya, Xorvatiya, Macarıstan, Monteneqro, Rumıniya, Serbiya, Şimali Makedoniya, Moldova, Bosniya və Herseqovina, Ukrayna və Türkmənistanın yüksək səviyyəli nümayəndələrinin iştirakı, həmçinin dünyanın bir sıra aparıcı şirkətlərinin və maliyyə qurumlarının qatılması layihəyə durmadan artan marağı və onun genişlənməkdə olan miqyasını göstərir: “Həmçinin səslənən fikirlər, irəli sürülən təkliflər bir daha təsdiqləyir ki, bütün sahələrdə, o cümlədən enerji təhlükəsizliyi məsələsində Azərbaycan etibarlı tərəfdaş kimi öz mövqeyini beynəlxalq arenada möhkəmləndirməkdədir. Dövlətimizin başçısı cənab İlham Əliyev də çıxışında bu məsələyə xüsusi diqqət yetdirdi. Ölkəmiz ixrac prosesinə başladığı vaxtdan bu günə kimi təchizatda heç bir ləngimə baş verməyib, müqavilə şərtləri pozulmayıb, Azərbaycan öz öhdəliklərinə sadiq qalaraq üzərinə düşəni ləyaqətlə yerinə yetirib”.

**“Cənub Qaz Dəhlizi dünyanın ən nəhəng layihələrindən biridir. Kəmərin çox ağır mürəkkəb relyeflərdən - hündür dağlardan, dəniz çökəkliyindən keçməsinə bağmayaraq, boru xətti yüksək keyfiyyəti ilə standartlara tam cavab verir. Layihənin uğurla tamamlanması istiqamətində də Azərbaycan öz üzərinə düşən vəzifələri vaxtında və çevik şəkildə icra etdi. İqtisadçıların hesablamalarına görə, ölkəmiz Dəhlizi çərçivəsində ixrac edəcəyi mavi qazdan milyardlarla dollar gəlir əldə edəcək. Bu da ölkəmizin valyuta ehtiyatlarının, büdcə gəlirlərinin artması, iqtisadi imkanlarının daha da genişlənməsi deməkdir”, - deyə Milli Məclisin deputatı bildirib.**

# Sabahın alimi olmaq istəyənlər

## XI respublika müsabiqəsinə qoşulacaqlar

**Fevralın 14-21-də “Sabahın alimləri” XI respublika müsabiqəsi onlayn keçiriləcək.**

Təhsil Nazirliyindən bildirilib ki, müsabiqə üçün 319 layihə qeydiyyatdan keçirilib. 247 layihə hazırlanıb göndərilib və Elmi Ekspertiza Komitəsi tərəfindən yoxlanaraq 192 (37 fərdi və 86 kollektiv) layihə (326 şagird) müsabiqəyə buraxılıb.

**Müsabiqəyə buraxılan layihələrlə Bakı şəhəri üzrə 48 faiz, Sumqayıt şəhəri üzrə 27 faiz, Şirvan rayonu üzrə 7 faiz IX-XI sinif şagirdləri, həmçinin Naxçıvan Muxtar Respublikası və 14 rayonun ümumtəhsil məktəblərinin IX-XI sinif şagirdləri iştirak edirlər.**

Müsabiqənin qalibləri ABŞ-da ənənəvi olaraq keçirilən ISEF müsabiqəsində ölkəmizi təmsil edəcəklər.

Qeyd edək ki, Azərbaycanda “Sabahın alimləri” respublika müsabiqəsi 2012-ci ildən başlayaraq keçirilir.

**Müsabiqənin məqsədi ölkəmizdə fəaliyyət göstərən ümumi təhsil müəssisələrinin IX-XI siniflərində təhsil alan şagirdlərin elmi axtarışlara sövq edilməsi, onların elmi və yaradıcılıq fəaliyyətinin stimullaşdırılması, tədqiqat işinə meyli olan istedadlı şagirdlərin aşkar edilməsi, həmçinin yüksək tədqiqat nəticələri əldə etmiş Azərbaycan məktəblilərinin seçilib ABŞ-da keçirilən İSEF - Beynəlxalq Elm və Mühəndislik Sərgisinə göndərilməsidir.**

Müsabiqənin keçirilməsində Təhsil Nazirliyinin tərəfdaşları Azərbaycan Milli Elmlər Akademiyası, Gənclər və İdman Nazirliyi, Heydər Əliyev Mərkəzi və Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsidir.

**Müsabiqə 8 istiqamət (riyaziyyat, fizika və astronomiya, kimya, biologiya, tibb və sağlamlıq, ekologiya və ətraf mühitin idarə olunması, mühəndislik, kompüter elmləri) üzrə həyata keçirilir.**

| Azərbaycan Respublikası Təhsil Nazirliyi | Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsi |
|---|---|

“31” yanvar 2022-ci il № Q-02 **QƏRAR** “25” yanvar 2022-ci il № 35/7

# Ali təhsil müəssisələrinin tələbələri arasında ümummilli lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunmuş bədii yaradıcılıq müsabiqə-festivalının keçirilməsi barədə

**Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş gənclər siyasəti bu gün uğurla davam etdirilir. 2022-ci ilin may ayının 10-da ümummilli lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümü tamam olur. Ulu öndərin anadan olmasının 99-cu ildönümü və xatirəsinə ehtiram əlaməti olaraq ali və orta ixtisas təhsili müəssisələrinin tələbələrini milli vətənpərvərlik, mədəniyyətimizə, incəsənətimizə, milli adət-ənənələrimizə hörmət ruhunda hazırlamaq məqsədilə Azərbaycan Respublikası Təhsil Nazirliyi və Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin Rəyasət Heyəti qərara alır:**

**1.** Ali təhsil müəssisələrinin tələbələri arasında Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunmuş bədii yaradıcılıq müsabiqə-festivalı 3 mərhələ üzrə 2022-ci ilin mart-may aylarında keçirilsin.

**2.** Ali təhsil müəssisələrinin tələbələrinin bədii yaradıcılıq müsabiqə-festivalı Azərbaycan Respublikası Təhsil Nazirliyi və Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin birgə tədbiri sayılsın.

**3.** Müsabiqə-festival qaliblərinin yekun konserti 2022-ci ilin may ayının birinci yarısında Bakı şəhərində keçirilsin.

**4.** Bədii yaradıcılıq müsabiqə-festivalının Əsasnaməsi (əlavə 1), Təşkilat Komitəsinin (əlavə 2) və Münsiflər Heyətinin tərkibi (əlavə 3) təsdiq edilsin.

**5.** Respublika Təşkilat Komitəsi, ali təhsil müəssisələrinin rəhbərləri, tələbə həmkarlar ittifaqı komitələrinin sədrləri:

- müsabiqə-festivalın yüksən səviyyədə keçirilməsi üçün tələbələrə lazımi şəraitin yaradılmasını;
- bu qərarla təsdiq edilmiş Əsasnamənin şərtlərinə uyğun müsabiqə-festivalın keçirilməsini;
- yekun konsertin kütləvi-informasiya vasitələri tərəfindən işıqlandırılmasını təmin etsin.

**6.** Bədii yaradıcılıq müsabiqə-festivalının keçirilməsi ilə bağlı tərəflər üzərinə götürür:

**6.1.** Azərbaycan Respublikasının Təhsil Nazirliyi:

- müsabiqə-festivalda qaliblərə hədiyyələrin alınmasını;
- diplom və dəvətnamələrin hazırlanmasını.

**6.2.** Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsi:

- müsabiqə-festival qaliblərinin yekun konsertinin keçirilməsi üçün yerin (zalın) icarəyə götürülməsini və səhnə tərtibatını;
- Münsiflər heyətinin sədrinə 800 manat, üzvlərinə 600 manat məbləğində pul mükafatının verilməsini;
- Müsabiqənin I və II mərhələsində Münsiflər heyətinin zonalara ezam olunmasının təmin edilməsini;
- Respublika mərhələsində bölgələrdə təhsil alan iştirakçıların Bakı şəhərinə ezamiyyə xərclərinin ödənilməsini.

**7.** Tərəflər müsabiqə-festivalın keçirilməsi və qaliblərin mükafatlandırılması ilə bağlı xərclər smetasını hazırlayıb 15 gün müddətində təsdiq etsinlər.

**8.** Təhsil Nazirliyinin Məktəbdənkənar fəaliyyətin təşkili şöbəsi (E.Əliyev) və Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin Mədəni-kütləvi və idman işləri şöbəsi (R.Nəzirov) bu qərardan irəli gələn vəzifələrin yerinə yetirilməsini təmin etsinlər.

**9.** Təhsil Nazirliyinin və Respublika Komitəsinin müvafiq şöbələri qərar və əlavələrin “Azərbaycan müəllimi” və “Ülfət” qəzetlərində dərc olunmasını və internet səhifələrində yerləşdirilməsini təmin etsinlər.

**10.** Qərarın icrasına nəzarət nazir müavini F.Qurbanova və sədr müavini M.Cəfərzadəyə həvalə olunsun.

| **Emin ƏMRULLAYEV,** *Azərbaycan Respublikasının təhsil naziri* | **Səttar MÖHBALIYEV,** *Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin sədri* |
|---|---|

# Pensiyalar artırıldı və əlavə olaraq pensiyaçılara maddi yardım ayrıldı




**Prezident İlham Əliyevin “Əmək pensiyaçılarının sosial müdafiəsi sahəsində əlavə tədbirlər haqqında” 2022-ci il 8 fevral tarixli Sərəncamı dövlət başçısının pensiyaçılara növbəti qayğısı olmaqla, COVID-19 pandemiyasının, habelə beynəlxalq bazarlardakı qiymət artımlarının ölkədaxili inflyasiyaya və əmək pensiyaçılarının sosial rifahına mənfi təsirlərinin yumşaldılması məqsədinə xidmət edir.**

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən AZƏRTAC-a bildirilib ki, yeni Sərəncamla 2022-ci il 1 yanvar tarixinədək təyin edilmiş əmək pensiyalarının sığorta hissəsi 2021-ci il üzrə orta aylıq nominal əməkhaqqının artım tempinə uyğun indeksləşdirilərək 2022-ci ilin 1 yanvar tarixindən artırılacaq və yanvar ayının artımı fevral ayının pensiyası ilə birgə veriləcək.

Dövlət Statistika Komitəsinin təqdim etdiyi məlumata əsasən, 2021-ci il üzrə orta aylıq nominal əməkhaqqının illik artım tempi 3,4 faiz təşkil edib.

**Bu artımla bərabər, Sərəncama əsasən, sığorta prinsipi ilə pensiya alanlara 2022-ci il üzrə 200 manat məbləğində maddi yardımın da verilməsi nəzərdə tutulur. Həmin vəsait rüblər üzrə bölünməklə pensiyaçılara ödəniləcək və ilkin ödəniş fevral ayının pensiyaları ilə birgə veriləcək. Bu həftə ərzində pensiyaların yeni artımlarla birgə ödənişinə başlanılacaq.**

Beləliklə, artımlar ölkə üzrə pensiyaların orta aylıq məbləğinə münasibətdə təqribən 9 faiz təşkil edəcək. 300 manatadək pensiya alan şəxslərdə bu artım 10 faizədək, daha yüksək məbləğlərdə pensiya alanlarda isə 7-8 faizədək olacaq.

**Sərəncamla müəyyən edilən indeksasiya və maddi yardım 2021-ci il üzrə orta inflyasiya dərəcəsini (6,7 faiz) üstələyir ki, bu da pensiyaçılara dövlət dəstəyinin növbəti bariz nümunəsidir.**

Pensiyaların 2022-ci ilin əvvəlindən indeksləşdirilərək artırılması və maddi yardım verilməsi pensiyaçıların 92 faizini və ya 1,1 milyon nəfəri əhatə edəcək və bu məqsədlər üçün il ərzində əlavə olaraq 352 milyon manat xərclənəcək.

Qeyd edilən maddi yardımın 2023-cü ilin əvvəlindən pensiyaçıların illik pensiyalarının tərkibinə daxil edilməsi nəzərdə tutulub. Bununla bağlı müvafiq qanunvericilik aktları qısa müddətdə ölkə Prezidentinə təqdim olunacaq.

Eyni zamanda, Sərəncamla istehlak qiymətləri indeksinin illik səviyyəsinə uyğun olaraq sığortaolunanların fərdi hesablarının sığorta hissəsindəki pensiya kapitalları da 6,7 faiz indeksləşdirilməklə artırılır. Bu da əmək müqaviləsi əsasında işləyən şəxslərin fərdi hesablarındakı pensiya kapitalının təkcə hər ay onların əməkhaqlarından sosial sığorta ayırmaları ilə deyil, həmçinin hər ilin əvvəlində dövlət tərəfindən indeksləşdirilərək artırıldığını da göstərir.

Yeni Sərəncam qulluq stajına görə əlavələrlə pensiya təyin edilmiş şəxsləri də əhatə edir. Dövlət başçısı tərəfindən Nazirlər Kabinetinə bu kateqoriyadan olan pensiyaçıların pensiyalarının indeksləşdirilməklə artırılması, habelə 2022-ci il üzrə maddi dəstəyin göstərilməsinə dair təkliflərini 1 ay müddətində təqdim edilməsi tapşırılıb.

**Məlumat üçün bildirək ki, qulluq stajına görə əlavələrlə pensiya təyin edilmiş şəxslər 99 min nəfərdir və əsasən pensiyaya çıxmış hərbçilər, hüquq-mühafizə orqanlarının əməkdaşları, dövlət qulluqçuları və b. ibarətdir. Mövcud qanunvericiliyə əsasən, bu kateqoriyadan olan pensiyaçıların pensiyaları sığorta prinsipindən kənar formalaşdığına görə illik indeksasiyalar onların pensiyalarının ümumi məbləğinə şamil olunmur. Yeni Sərəncam isə bu şəxslərə də 2022-ci ildə dövlət dəstəyinin göstərilməsinə və ümumi pensiya məbləğlərinin hər il artırılmasına imkan yaradacaq.**

# Şuşa Bəyannaməsi

## gələcək dərsliklərə yazılacaq mühüm tarixi hadisə

**Azərbaycan dövlətçilik tarixinin ən mühüm sənədlərindən biri kimi qiymətləndirilən Şuşa Bəyannaməsi bizə və qardaş Türkiyəyə nələr vəd edir? Bəyannamədə beynəlxalq müstəvidə birgə əməkdaşlıq çərçivəsində hansı sahələr əhatə olunub? İki qardaş ölkə arasında milli təhlükəsizlik və iqtisadi-ticarət münasibətlərində nə kimi yeniliklər gözlənilir?**

**Mövzuya dair bu və ya digər suallarımızı Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli, Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov, İnsan hüquqları komitəsinin üzvü Tural Gəncəliyev cavablandırdılar.**



Əli Hüseynli

**“ 2021-ci il iyunun 15-də bizim üçün mühüm mənəvi və siyasi əhəmiyyət kəsb edən Şuşa şəhərində Azərbaycan və Türkiyə respublikaları arasında müttəfiqlik münasibətləri haqqında Bəyannamənin imzalanması, sözsüz ki, gələcək dərsliklərə yazılacaq mühüm tarixi hadisə kimi yaddaşlarımıza həkk olundu”.**




**Bunu millət vəkili Əli Hüseynli bildirdi. Dedi ki, Şuşa Bəyannaməsinin məhz Azərbaycan xalqının Milli Qurtuluş Günü - 15 İyun tarixinə və Qarabağ, Zəngəzur üçün çox vacib sayılan Qars müqaviləsinin 100-cü ildönümünə təsadüf etməsinin xüsusi rəmzi mənası var. Bölgə uğrunda beynəlxalq güclərin və aparıcı dünya dövlətlərinin açıq mübarizəsi fonunda hadisələr Azərbaycanın və Türkiyənin xeyrinə və maraqlarına uyğun cərəyan edir. Təsadüfi deyil ki, Şuşada Türkiyə lideri ilə Bəyannamə imzalayarkən Azərbaycanın dövlət başçısı hər kəsin yadına Qars müqaviləsini saldı. O qeyd etdi ki, tarixi Qars müqaviləsi düz yüz il əvvəl imzalanıb. Bu da böyük rəmzi məna daşıyır. 30 illik işğaldan azad edilmiş Şuşa şəhərində müttəfiqlik haqqında imzalanmış birgə Bəyannamə bizim gələcək işbirliyimizin istiqamətini göstərir. Bəyannamədə bir çox önəmli məsələlər öz əksini tapır. Beynəlxalq müstəvidə birgə əməkdaşlıq, fəaliyyətimiz, siyasi əlaqələr, iqtisadi-ticarət əlaqələri, mədəniyyət, təhsil, idman, gənclər siyasəti, demək olar ki, bütün sahələr əhatə olunur. Eyni zamanda Cənub Qaz Dəhlizinin Türkiyə, Azərbaycan, dünya üçün önəmi göstərilir.**

Bu günlərdə isə - fevralın 1-də Azərbaycan Respublikası Milli Məclisinin yaz sessiyasının ilk iclasında “Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında” Şuşa Bəyannaməsinin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Qanununun layihəsi qəbul olundu. Bunun ardınca Türkiyə Böyük Millət Məclisi (TBMM) tərəfindən dərhal ratifikasiya olunduqdan sonra Şuşa Bəyannaməsi Azərbaycanın geniş mənada təhlükəsizliyini təmin edən olduqca mühüm sənəd kimi NATO-nun ikinci ən qüdrətli ordusuna malik Türkiyə ilə Azərbaycan arasındakı qarşılıqlı münasibətləri hərbi müttəfiqlik səviyyəsinə qaldıran beynəlxalq saziş statusu almış oldu.

**Azərbaycan və Türkiyə arasında imzalanmış Şuşa Bəyannaməsi iki ölkə arasında münasibətlərdə inqilabi gerçəklik olaraq bu münasibətlərin yeni, daha geniş və yüksək səviyyəli mərhələsinin başlanğıcını qoymuşdur. 15 iyun 2021-ci il tarixindən başlayaraq Bakı və Ankara hərbi-siyasi, iqtisadi sahələrdə müttəfiqliklərini rəsmi şəkildə elan etdi. Bəyannamədə diqqəti çəkən ən vacib məqamlardan biri hərbi sahədə əməkdaşlıq və müttəfiqliklə bağlıdır. Digər tərəfdən, bu sənəd Türkiyənin Cənubi Qafqaz regionunda inkişafa söykənən təsir dairəsinin artmasına, Avrasiya məkanına daha geniş və rahat çıxışına yaşıl işıq yandırmış olur.**

Millət vəkili qeyd etdi ki, Şuşa Bəyannaməsinin tarixi və siyasi əhəmiyyətindən bəhs edərkən ilk növbədə onun əsas hədəflərindən biri kimi təkcə ölkəmiz üçün deyil, həm də dolayısı ilə bütün regionun təhlükəsizliyi üçün güvənli sənəd olduğunun fərqinə varmaq lazımdır. Bu gün Cənubi Qafqazda yaranmış yeni reallıq Azərbaycan dövlətinin və xalqının birbaşa qalibiyyətinin nəticəsidir. Hər iki ölkənin ümumi maraqlarının qorunmasında imkanların birləşdirilməsinə, eləcə də müştərək maraq kəsb edən regional və beynəlxalq strateji məsələlərdə fəaliyyətlərinin qarşılıqlı şəkildə əlaqələndirilməsinə istiqamətlənən saziş Bakı və Ankaranın başçılığı altında yeni regional geosiyasi konfiqurasiyanın qurulmasında, bunun üçün münbit şəraitin yaradılmasında müstəsna əhəmiyyət kəsb edir. Bu, regionda 200 ilə yaxın davam edən geosiyasi konfiqurasiyaların dağıdılması və bundan sonra Azərbaycan-Türkiyə tandeminin rəhbərliyi altında davam edəcək yeni regional düzənin başlanğıcı deməkdir. Ona görə də 44 günlük Vətən müharibəsində əldə etdiyimiz tarixi Zəfərdən sonra bölgədə yaranmış yeni geosiyasi reallıqların düzgün dəyərləndirilməsi vacib şərtdir. Bu baxımdan Şuşa Bəyannaməsi region dövlətlərinin - Azərbaycan, Türkiyə, Rusiya, İran, Gürcüstan və Ermənistan üçün “3+3” formatı üzərindən sülh və əmin-amanlıq şəraitində iqtisadi tərəqqi yoluna çıxara biləcək və yeni inkişaf perspektivlərinin təhlükəsizliyini və etibarlılığını təmin edəcək amil rolunu oynayır.

Ə. Hüseynli vurğuladı ki, işğaldan azad edilmiş ərazilərin təhlükəsizliyi məsələsinə gəlincə, Bəyannamədə birmənalı olaraq qeyd edilir ki, iki dövlətin ərazi bütövlüyünə, suverenliyinə üçüncü dövlət və ya dövlətlər tərəfindən təhdid və ya təcavüz edildiyi təqdirdə, onlar bir-birini qoruyacaqlar. Bu sazişlə iki qardaş ölkə həm də iki dövlətin silahlı qüvvələrinin müasir tələblərə uyğun olaraq yenidən formalaşdırılması və modernləşdirilməsi istiqamətində birgə səylərin göstərilməsi, müdafiə qabiliyyətlərinin və hərbi təhlükəsizliyinin möhkəmləndirilməsinə yönələn tədbirlərin həyata keçirilməsi, iki ölkənin silahlı qüvvələrinin birlikdə fəaliyyət qabiliyyətinin artırılması, müasir texnologiyalara əsaslanan silah və sursatların idarə olunmasında sıx əməkdaşlığı və bu məqsədlə səlahiyyətli struktur və qurumların əlaqəli fəaliyyətinin təmin edilməsinin təşviq olunması ilə bağlı da razılıq əldə etmişlər. Bu müddəanın sənəddə yer alması bu gün Ermənistandakı revanşist qüvvələrdən tutmuş, ayrı-ayrı qonşu və qeyri-regional dövlətlər üçün çox mühüm ismarıcdır.

Bundan əlavə, ötən il iyulun 27-də Azərbaycan, Türkiyə və Pakistanın parlament rəhbərlərinin yeni formatda Birinci Üçtərəfli görüşünün yekununda qəbul olunan Bakı Bəyannaməsində əksini tapan məsələlər dövlətlərimiz arasında münasibətlərin inkişafının parlament ölçüsünün möhkəmləndirilməsini nəzərdə tutur. Bu müstəvidə müdafiə, nəqliyyat, enerji, təhsil, turizm və rabitə sahələrində ölkələrarası münasibətlərin dərinləşməsi, birgə səylərlə regionda sülh, sabitlik və inkişafın əldə edilməsi ilə bağlı siyasi iradə ifadə olunur və gələcəkdə bu istiqamətdə fəaliyyətin daha da dərinləşməsi üçün strateji iş birliyinin qurulmasının vacibliyi qeyd olunur.

Müqavilədə digər vacib məqamlardan biri postmünaqişə dövründə iqtisadi-nəqliyyat məsələləri ilə bağlıdır. Azərbaycan və Türkiyə arasında imzalanan Bəyannamədə xüsusilə əzəli türk torpağı Zəngəzur dəhlizinin adının hallanması tarixi gerçəkliyi və hədəfləri göstərən mühüm amildir. Bəyannamədə milli iqtisadiyyatların və ixracın şaxələndirilməsi üzrə səylərin artırılması, malların sərbəst hərəkətinin təşkili mexanizmlərinin yaradılması istiqamətində zəruri tədbirlərin görülməsi, Cənub Qaz Dəhlizinin səmərəli şəkildə istifadə olunmasına və daha da inkişaf etdirilməsinə yönəldilmiş səylərin əlaqələndirilmiş şəkildə davam etdirilməsi, intellektual nəqliyyat sistemləri texnologiyalarından istifadə etməklə beynəlxalq nəqliyyat dəhlizlərinin Azərbaycan-Türkiyə hissələrində tranzit-nəqliyyat potensialının daha da inkişafı, Azərbaycan və Türkiyəni birləşdirən Zəngəzur dəhlizinin açılması, regionda nəqliyyat-kommunikasiya əlaqələrinin bərpası, beynəlxalq nəqliyyat dəhlizlərinin inkişafının təşviqi kimi aktual məsələləri yer alır. Sənəddə xüsusilə vurğulanır ki, Türkiyə ilə Azərbaycanı və Azərbaycanın qərbdəki bölgələri ilə Naxçıvan Muxtar Respublikasını birləşdirən dəhlizin açılması və onun davamı olaraq Naxçıvan-Qars dəmir yolunun inşası iki ölkə arasında nəqliyyat-kommunikasiya əlaqələrinin intensivləşməsinə əhəmiyyətli dərəcədə kömək edəcək.

**Bəyannamənin imzalanması ilə Azərbaycan və Türkiyə həm də bir-biri ilə ticarət-iqtisadi münasibətlərdə milli iqtisadiyyatların və ixracın şaxələndirilməsinə, malların sərbəst hərəkətinin təşkilinə nail olacaq. Hazırda işğaldan azad olunmuş ərazilərdə böyük vüsət almış bərpa və yenidənqurma layihələrinin icrasına cəlb edilmiş qurumlar arasında Türkiyə şirkətləri ön sıradadır. Onlar artıq Azərbaycan üçün önəmli infrastruktur layihələrinin icrası prosesində uğurlu fəaliyyət göstərməkdədirlər. Xüsusilə Füzuli-Şuşa avtomobil yolunun tikintisində və çətin relyefli dağ ərazilərindən keçən digər yol qovşaqlarının, çoxsaylı tunellərin tikintisində türkiyə təmsilçiləri Azərbaycan şirkətləri ilə birlikdə böyük işlər görürlər. Cəmi 8 ay müddətində inşa edilmiş və hər iki dövlət başçısının birgə açılışını etdiyi Füzuli Beynəlxalq Aeroportunun tikintisində də Türkiyənin aparıcı şirkətlərinin müstəsna töhfəsi olmuşdur.**




*Unutmayaq ki, bir müddət əvvəl həm də Azərbaycan və Türkiyə vətəndaşlarının şəxsiyyət vəsiqəsi ilə səyahət etmələri haqqında razılaşma əldə edilib. Deməli, Şuşa Bəyannaməsi ilə iki ölkə arasında turizm, ticarət əlaqələrində yeni səhifənin açılmasına şahidlik edəcəyik. Bu, həm də bundan sonra iki dövlət arasında sərhədin formal xarakter daşıyacağının göstəricisidir.*

Millət vəkili Əli Hüseynli dedi ki, kontekstdən kənar əlavə olaraq xüsusi qeyd etmək istərdim ki, Şuşa Bəyannaməsi həm də informasiya müharibəsində birgə addımların atılmasını hədəfləyir. Sənəddə Azərbaycan-Türkiyə Media Platformasının imkanları çərçivəsində iki ölkənin aidiyyəti qurumları arasında informasiya, kommunikasiya və ictimai diplomatiya sahəsində əməkdaşlığın daha da gücləndirilməsi, Azərbaycan və türk diasporları arasında əməkdaşlığın daha sıx inkişaf etdirilməsi, ümumi problemlər qarşısında da birlikdə addımların atılması və ardıcıl həmrəylik göstərilməsi, həmçinin Azərbaycan və Türkiyənin xarici siyasət davranışları ilə bağlı müddəaların yer alması da bu məsələnin əhəmiyyətini önə çəkən vacib məqamdır.






Səməd Seyidov

**Millət vəkili Səməd Seyidov** bu sənədin millətimiz və dövlətimiz üçün tarixi əhəmiyyət kəsb etdiyini bildirdi. Dedi ki, Şuşa Bəyannaməsi illərlə həsrətlə gözlədiyimiz, şəhidlərin qanı ilə qazanılmış, Ali Baş Komandan Prezident İlham Əliyevin müstəsna xidməti və qəhrəmanlığı sayəsində yazılmış bir sənəddir.

***Bəyannaməni Türkiyə və Azərbaycan arasında yeni münasibətlərin başlanğıcı kimi də qiymətləndirmək olar deyən millət vəkili vurğuladı ki, bu tarixi sənəd ürəyimiz bir döyünən qardaş Türkiyə ilə bizi əbədi birləşdirəcək. Şuşa Bəyannaməsinin təsdiqi, eyni zamanda bizə əngəl törətmək, daxili işlərimizə, torpaqlarımıza müdaxilə etmək niyyətində olan qüvvələrə qarşı ən düzgün və tutarlı cavabdır.***

S.Seyidov qeyd etdi ki, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan NATO-da olan zaman “Mən burdan çıxıb Şuşaya gedirəm’’ deyərək Şuşanı vurğulaması ilə dost və düşmən ölkələrə Türkiyənin qəlbinin qardaş Azərbaycanla bir döyündüyünü bariz şəkildə bir daha göstərmişdi. İki ölkə arasındakı əlaqələri müttəfiqlik səviyyəsinə yüksəldən bu tarixi sənəddən sonra da regionda müsbət yöndə dəyişikliklərin olması gözlənilir. Düşünürəm ki, bir sıra dövlətlərin açıq mübarizəsi müşahidə olunan bölgədə artıq hadisələr bizim xeyrimizə və maraqlarımıza uyğun dəyişəcək.

**Şuşa Bəyannaməsi xüsusən də Ermənistan və onun arxasındakı havadarlarına lazımi cavabdır deyən millət vəkili qeyd etdi ki, Cənubi Qafqazda Türkiyənin güclənməsi və Türk Dövlətləri Birliyinin möhkəmlənməsi məhz bu Bəyannamə əsasında daha da sürətlənəcək. Eyni zamanda haqlı müharibəmizdən sonra işğaldan azad olunan ərazilərdəki bərpa-quruculuq işlərində, təbii ki, qardaş Türkiyənin, türk şirkətlərinin müstəsna xidmətləri var, biz onların xüsusi əzmkarlıqla iştirak etdiyinin şahidi oluruq. İstər nəqliyyat, istər texnologiya və digər sahələrdə bərpa və yenidənqurma işlərində Türkiyənin rolu böyükdür. Və düşünürəm ki, bu proses Şuşa Bəyannaməsindən sonra daha da artacaq. Həmçinin Azərbaycan Türkiyə tranzit nəqiliyyat potensialının daha da inkişaf etdilməsi üçün iki qardaş ölkəni birləşdirən Zəngəzur dəhlizinin açılması əlaqələrimizin daha da möhkəmlənməsinə şərait yaradacaq.**

***“İki qardaş ölkə arasında imzalanmış Şuşa Bəyannaməsinin tarixi gerçəkliklərdən və yeni reallıqlardan, ələlxüsus da 44 günlük müharibədə Azərbaycanın qələbəsindən sonra əhəmiyyəti olduqca önəmlidir. Bəyannamədə hər iki ölkənin müstəqilliyi, suverenliyi, ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı kimi milli maraqlarımıza söykənən məsələlərdə qarşılıqlı yardım prinsipindən çıxış olunur”.***

Bunu **millət vəkili Tural Gəncəliyev** bildirdi. Dedi ki, eyni zamanda Bəyannamədə Türkiyə və Azərbaycan arasında əvvəllər imzalanmış strateji tərəfdaşlıq və qarşılıqlı yardım haqqında müqaviləyə istinad olunur ki, bu da ölkələrimizin bir-biri ilə sıx şəkildə inteqrasiya olduğunu və gələcək planlar üzrə birgə addımlar atılacağını göstərir. Bəyannamənin ən önəmli nüanslarından biri də odur ki, sənəddə 44 günlük Vətən müharibəsi xüsusilə vurğulanır. Ermənistanın 30 ilə qədər davam edən işğalına son qoyulmasından sonra tarixi ədalətin zəfər çalması və beynəlxalq hüququn bərpa olunduğu qeyd olunur. Beləliklə də, yenidən Azərbaycan torpaqlarına, ərazi bütövlüyümüzə qarşı hər hansı şəkildə iddiaların olması zamanı Türkiyə dövlətini də qarşılarında görəcəklərinin mesajı verilir.



Tural Gəncəliyev

**T. Gəncəliyev bildirdi ki, Bəyannamənin kontekstində Türkiyə və Azərbaycanla yanaşı, beynəlxalq münasibətlərdə, eyni zamanda BMT, ATƏT, Avropa Şurası, Türkdilli Dövlətlər Birliyi, İslam Əməkdaşlığı Təşkilatı kimi qurumlarda ölkələrin bir- birinə dəstək verməsi, qarşılıqlı yardım etmələri prinsipi də nəzərdə tutulmuşdur.**

Biz Vətən müharibəsi dövründə dövlət, xalq, ordu birliyinin şahidi olduq və Ali Baş Komandanın atdığı müdrik addımlar və dünya standartlarına cavab verən Silahlı Qüvvələrimizin sayəsində qarşıda duran çətin problem həll edildi. Baxın, bu kimi kontekslər Şuşa Bəyannaməsinin əhəmiyyətini çox artırır. Beləliklə, burada həm siyasi, təhlükəsizlik, iqtisadi, həm də enerji təhlükəsizliyi məsələləri kimi elementləri də nəzədən keçirsək, Şuşa Bəyannaməsinin hərtərəfli bir sənəd olduğu və beynəlxalq hüquq, beynəlxalq münasibətlər kontekstində iki ölkənin necə yaxın əməkdaşlıq etməsi, strateji müttəfiq olması nümunə rolunu oynayır.

**Millət vəkili sonda əlavə etdi ki, Zəngəzur dəhlizinin açılması və həmin dəhlizin davamı kimi Naxçıvan-Qars dəmiryolunun tikintisinin nəinki iki ölkə arasında, bütün nəqliyyat-kommunikasiya əlaqələrinin intensivləşməsinə, eyni zamanda regionun nəqliyyat tranzit xətlərinin açılmasına töhfə verəcəyi Bəyannamədə qeyd olunan ən önəmli məqamlardan biridir.**

**Əsli TELMANQIZI**

# Naxçıvanda informasiya texnologiyaları üzrə “Bootcamp” layihəsinə start verilib




**Fevralın 2 -də “Ağbulaq” İstirahət Mərkəzində 3 günlük İT üzrə intensiv Tədris keçirilmişdir. Azərbaycan dilində keçirilən tədrisin ödənişini Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurası öz üzərinə götürmüşdür. Tədrisi uğurla başa çatdıran iştirakçılar diplomla təltif olundular.**

***

**Naxçıvan Dövlət Universiteti İnformasiya-kommunikasiya texnologiyaları və elektron təhsil şöbəsi, Tələbə Həmkarlar İttifaqı Komitəsinin təşkilatçılığı, Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının maliyyə dəstəyi ilə “Ağbulaq” İstirahət Mərkəzində informasiya texnologiyaları üzrə “Bootcamp” layihəsinə start verilib.**

Layihənin təşkilatçıları universitetin İnformasiya-kommunikasiya texnologiyaları və elektron təhsil şöbəsinin müdiri Hüseyn Əsgərli və ali təhsil ocağının Həmkarlar İttifaqı Komitəsinin sədri Hüseyn İmanov layihə ilə bağlı iştirakçıları məlumatlandırıb.

***Yeni Azərbaycan Partiyası (YAP) Naxçıvan Muxtar Respublika Təşkilatının icra katibi, Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Anar İbrahimov çıxışında bu cür təlimlərin əhəmiyyətini qeyd edib, müasir dövrdə vacib olan İKT bacarıqlarının qiymətləndirilməsi və bu sahədə süni intellekt texnologiyalarının geniş istifadə olunduğunu diqqətə çatdırıb.***

Universitetin rektoru Elbrus İsayev layihənin işinə uğurlar arzulayıb, universitetdə gənclərin layihəsi əsasında həyata keçirilən 3 mobil tətbiqdən danışıb. Rektor bildirib ki, mobil tətbiqlər tələbələrin İKT sahəsində təcrübəsini artırmaqla yanaşı, tələbələr üçün də məlumatların əlçatanlığını təmin edir. Texnologiyalar Parkı layihəsinin həyata keçirilməsində informasiya texnologiyalarının vacibliyini qeyd edən Elbrus İsayev bu sahədə yeni bilik və bacarıqların əldə olunmasının effektiv təsirini vurğulayıb.

Tədbirə onlayn qatılan “İKT LAB” Tətbiq və Tədris Mərkəzinin direktoru Rauf Cabarov qeyd edib ki, mərkəzin əsas missiyası sürətlə dəyişən texnologiyalar dövründə İKT-dən səmərəli istifadəni insanlara öyrətmək və bütün fəaliyyət sahələrində texnologiyaların geniş tətbiqinə nail olmaqdır. Mərkəzin direktoru rəqəmsal bacarıqlar və ofis proqramları, data analitika, şəbəkə və sistem inzibatçılığı, kiber təhlükəsizlik, qrafik dizayn və digər təlim metodlarından danışıb. Rauf Cabarov muxtar respublikada həyata keçirilən “Bootcamp” layihəsinin əhəmiyyətini vurğulayıb.




**Qeyd edək ki, layihədə İT sahəsinə gedən yol, proqramlaşdırma təlimləri, əşyaların interneti, startap və ekosistemlərin tətbiqində İKT və bulud texnologiyaları kimi mövzular barədə təlimlər həyata keçiriləcək. Müsabiqə və müsahibə mərhələsindən uğurla keçmiş 50 iştirakçının qatıldığı layihənin sonunda gənclər sertifikat əldə edəcəklər. Ən yaxşı proqram təminatçısı seçilən 2 nəfər iştirakçı isə mükafatlandırılacaq.**

# Sədr və komitənin tərkibi dəyişdirildi



**Azərbaycan Dövlət İqtisad Universitetində (UNEC) Həmkarlar İttifaqı Komitəsinin (HİK) növbəti iclası keçirilib. İclası universitetin inzibati və təşkilati məsələlər üzrə prorektoru, dosent Şaiq Əsgərov açıb. Bildirib ki, bugünkü iclasda yeni sədr seçkisi və komitənin tərkibində dəyişiklik məsələlərinə baxılacaq.**

Həmkarlar İttifaqı Komitəsinin sədri vəzifəsini icra edən Vəlixan Namazov komitənin hesabat məruzəsi ilə çıxış edib. Hesabat müsbət dəyərləndirilib.

Sonra Həmkarlar İttifaqı Komitəsinə sədr seçkisi keçirilib. UNEC-in Tələbə Həmkarlar İttifaqı Komitəsinin sədri Rüfət Süleymanlı Həmkarlar İttifaqı Komitəsinin yeni sədri seçilib.

Prorektor, dosent Şaiq Əsgərov Rüfət Süleymanlının THİK sədri kimi fəaliyyətindən söz açıb. Onun rəhbərliyi ilə THİK tərəfindən UNEC-in məzunu və tələbəsi olan şəhid və qazı ailələrinə, eləcə də sosial durumu həssas olan tələbələrə göstərilən diqqət və qayğıdan danışıb. R.Süleymanlının HİK sədri kimi də vəzifəsinin öhdəsindən layiqincə gələcəyindən əminliyini ifadə edib.

Sonra Rüfət Süleymanlı çıxış edərək ona göstərilən etimada görə universitet və TİAHİ rəhbərliyinə təşəkkürünü bildirib.

**İclasda Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsi sədrinin müavini Mirzə Cəfərzadə də iştirak edib.**

# Qaliblər mükafatlandırıldı

**2 Fevral - Azərbaycan Gəncləri Günü münasibətilə Nəqliyyat, Rabitə və Yüksək Texnologiya İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsində gənclərlə görüş keçirilib.**

Görüşdə “Bakı Telefon Rabitəsi” MMC, “Azərpoçt” MMC, “Teleradio” İB-nin həmkarlar ittifaqı komitələrinin sədrləri və fəal gənclər iştirak ediblər. 2021-ci ilin nəticələrinə görə “İlin peşəkar gənci” adına layiq görülmüş gənclər Fəxri Fərman və qiymətli hədiyyələrlə mükafatlandırılıblar.



# “Təhsilə ictimai baxış” silsiləsindən ilk müzakirə keçirilib



**Fevralın 4-də Təhsil Nazirliyi yanında İctimai Şuranın və “T-Network” təhsil işçilərinin təcrübə və kommunikasiya platformasının təşkilatçılığı ilə “Təhsilə ictimai baxış” adlı silsilə müzakirələr çərçivəsində ilk müzakirə təşkil olunub.**

Təlim və tərbiyə mövzusuna həsr olunan ilk müzakirədə Təhsil Nazirliyinin əməkdaşları, nazirlik yanında İctimai Şuranın üzvləri, təhsil ekspertləri, məktəb direktorları, valideyn və müəllimlər, digər ictimaiyyət nümayəndələri iştirak ediblər.

Müzakirələrdə təlim və tərbiyə prosesinin təşkilində mövcud vəziyyət, problemlər, onların səbəbləri və çıxış yolları, o cümlədən təlim və tərbiyənin vəhdətinin səmərəli təşkili məsələlərinə toxunulub.

**Giriş nitqi ilə çıxış edən İctimai Şuranın sədri Günel Səfərova silsilə müzakirələrin məqsədindən danışıb. Bildirilib ki, məqsəd bütün maraqlı tərəflərlə səmərəli dialoq qurmaq və mövcud vəziyyəti yaxşılaşdırmaq üçün reallıqları müzakirə etmək, ictimai rəyi öyrənmək və təhsildə inkişafın mümkün istiqamətlərini nəzərdən keçirməkdir.**

Təhsil nazirinin müşaviri Elnur Nəsibov bu cür silsilə müzakirələrin təhsil naziri Emin Əmrullayevin təhsilin təkmilləşdirilməsində ictimai rəyin öyrənilməsinin əhəmiyyəti ilə bağlı çağırışına cavab mahiyyəti daşıdığını vurğulayıb və təhsilin bütün cəmiyyətin maraq mövzusunda olduğunu bildirib.

Daha sonra Təhsil Nazirliyinin Ümumi təhsilin təşkili və idarəolunması şöbəsinin müdiri Elnur Əliyev “Məktəblərdə keyfiyyət monitorinqi-2021 nəticələrinin təhlilində müəllim-şagird münasibətləri və bullinq” adlı təqdimatla çıxış edib. Şöbə müdiri təqdimatında təhsil naziri Emin Əmrullayevin müvafiq əmri ilə məktəblərdə təhsilin, tədris və idarəetmə prosesinin keyfiyyətinin ölçülməsi məqsədilə keçirilən monitorinqlərin nəticələrinə toxunub.

**Müzakirələrdə təhsilin inkişafı ilə əlaqədar bir sıra çağırışlar səsləndirilib və belə müzakirələrin davamlı olmasının əhəmiyyəti qeyd olunub.**

# İCTİMAİ ŞURA ÜZVLƏRİ İLƏ GÖRÜŞ

**Bakı Şəhəri üzrə Təhsil İdarəsində (BŞTİ) Təhsil Nazirliyi yanında İctimai Şuranın üzvləri ilə görüş keçirilib.**

Görüşdə məktəbə və müəllimə qarşı düzgün ictimai rəyin formalaşması barədə söhbət açılıb və qarşıda duran vəzifələrə dair fikirlər söylənilib.

**BŞTİ-nin müdiri Mehriban Vəliyeva İctimai Şura üzvlərinə fəaliyyətlərində uğurlar arzulayıb və qarşılıqlı əməkdaşlıqdan məmnunluğunu ifadə edib. Mehriban Vəliyeva BŞTİ-nin qarşıdakı müddətdə paytaxt təhsilinin yenilənməsi, qarşıya qoyulmuş hədəflərə çatması baxımından İctimai Şura ilə səmərəli əməkdaşlığa nail olunacağına inamını bildirib.**



İdarə müdiri ötən il qazanılmış uğurlar və 2022-ci ildə həyata keçirilməsi nəzərdə tutulan işlər barədə məlumat verib, İctimai Şuranın iştirakı ilə məktəblərdə pedaqoji kollektiv, valideyn və şagirdlərlə görüşlərin təşkilinin faydalı ola biləcəyini diqqətə çatdırıb.

Təhsil nazirinin müşaviri Elnur Nəsibov İctimai Şuranın fəaliyyətinin səmərəli təşkilindən söz açıb. O, təhsilin daim inkişaf edən, təkmilləşən strateji sahə olduğunu bildirib, həmçinin son günlər təhsillə bağlı baş verən bir sıra məsələlərə də toxunub. Bildirib ki, ictimai dialoq, müzakirə və birgə iş nəticəsində təhsillə bağlı mövcud problemlər müəyyən edilməli və onlar ictimai səviyyədə müzakirə olunmalıdır. O, bu işdə daha yaxşı nəticələr əldə etmək üçün cəmiyyətin və ictimaiyyətin təmsilçisi kimi İctimai Şuranın dəstəyinə ciddi ehtiyac duyulduğunu diqqətə çatdırıb.

**Təhsil Nazirliyi yanında İctimai Şuranın üzvləri təhsilin cəmiyyətdəki rolu, məktəb və müəllimin nüfuzu, təhsilverənlərin fəaliyyətinin stimullaşdırılması, pedaqoji təhsildəki yeniliklərin müəllimlərə operativ ötürülməsi üçün məqsədyönlü təlimlərin təşkili, yeni yanaşmalarla təcrübənin sintezi, məktəb direktorları və müəllimlərin fəallığının artırılması, müasir qiymətləndirmə mexanizmlərinin tətbiqi, monitorinqlərin hədəflərinin dəqiq müəyyənləşdirilməsi və digər müvafiq məsələlər üzrə təklif və tövsiyələrini səsləndiriblər.**

Müzakirələrdə birgə əməkdaşlığın davam etdirilməsi qərara alınıb.

**Tədbirdə İctimai Şuranın üzvü, Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin sədr müavini Mirzə Cəfərzadə də çıxış edib, gündəlikdə duran məsələlərə təmsil etdiyi təşkilatın münasibətini bildirib.**

# Yaddaqalan görüş

**Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı İsmayıllı Rayon Komitəsi, rayon təhsil şöbəsi və Gənclər və İdman İdarəsi ilə birgə 2 Fevral-Gənclər Günü ərəfəsində rayonun təhsilində fəal iştirak edən 30 nəfər gənc müəllimlə görüş təşkil edib.**




Görüşdə müxtəlif illərdə “İlin peşəkar gənci” müsabiqəsinin, intellektual bilik yarışlarının, təhsil qrant layihələrinin qalibləri, fənn olimpiadalarının rayon və respublika turlarında mükafatalayiq yer tutan gənc müəllimlər iştirak ediblər. Görüş iştirakçıları pandemiya qaydalarına riayət etməklə, çay süfrəsi arxasında fikir mübadiləsi apardılar. Rayonun təhsilinin inkişafı üçün görüləcək işlər, mövcud problemlər və qarşıda duran vəzifələr haqqında maraqlı təklif və diskussiya şəraitində keçən görüş gənc müəllimlər tərəfindən maraqla qarşılandı.

**Sonda iştirakçılara diplom və qiymətli hədiyyələr təqdim olundu.**

# Ölkə başçısının siyasətini dəstəklədiklərini söylədilər

**2 Fevral - Gənclər Günü münasibətilə Qazax Rayon Mədəniyyət Mərkəzində “Gənclik -inkişaf, gənclik-tərəqqidir” adlı tədbir keçirilmişdir. Tədbir iştirakçıları şəhidlərin əziz xatirəsini birdəqiqəlik sükutla yad etmişlər.**



Sonra Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı Qazax Rayon Komitəsinin sədri İsgəndər Qurbanov çıxış edərək rayon gənclərini bu əlamətdar gün münasibətilə təbrik etmişdir. Dövlətimizin gənclər siyasətindən danışmışdır. “Bu siyasətin nəticəsidir ki, Azərbaycanda vətənpərvər, yüksək intellektual səviyyəyə malik gənclər yetişmişdir”- demişdir. Tədbirdə cıxış edən Ağstafa Regional Mədəniyyət İdarəsinin Qazax rayonu üzrə nümayəndəsi Valeh Vəliyev, Vətən müharibəsi qazisi Səxavət Hacıməmmədov, Qazax şəhər 1 nömrəli Uşaq Musiqi Məktəbinin müəllimi Aysel Kərimova, Qazax Şəhər 1 nömrəli Kitabxana Filialının müdiri Fəridə Xudiyeva çıxış edərək gənclərimizin dövlətimizin başçısı İlham Əliyevin ətrafında sıx birləşdiyini, onun siyasi kursunu dəstəklədiklərini bildirmişlər.

**Çay süfrəsi arxasında təşkil olunmiş tədbir konsert proqramı ilə başa çatmışdır.**

# Azərbaycan gəncliyində özünə, öz gücünə, istedadına inam hissi artıb



**2 Fevral - Azərbaycan Gəncləri Günü ilə əlaqədar Metropoliten İşçiləri Həmkarlar İttifaqında (MİHİ) universal döyüş idman növü üzrə dünya kubokunda qızıl medal qazanaraq Azərbaycan bayrağını ucaltmış metropoliten əməkdaşı İlkin Bədirxanovla görüş keçirilib.**

Görüşdə çıxış edən MİHİ sədri Arif Mərdanov dövlətimizin gənclər siyasətindən danışıb. Bildirib ki, gənclərin potensialının gerçəkləşməsinə, onların vətənpərvər, savadlı kadr kimi yetişməsinə, gənc ailələrin sosial təminatına yönələn tədbirləri dövlətin uzaqgörən siyasətinin göstəricisi kimi qiymətləndirilməlidir: "Gənclər siyasəti gənc nəslin ictimai-siyasi həyatdakı rolunun artmasına, ölkənin aparıcı qüvvəsinə çevrilməsinə, bütövlükdə kreativ gəncliyin formalaşmasına şərait yaradıb. Dövlətin gənclərə dəstək və diqqət göstərməsinin nəticəsində Azərbaycan gəncliyində özünə, öz gücünə, istedadına inam hissi artıb". A.Mərdanov qeyd edib ki, rəşadətli Azərbaycan Ordusunun sıralarındakı Vətən uğrunda mətanətlə vuruşan qəhrəman gənclərimiz öz adlarını xalqımızın ən yeni tarixinə qızıl hərflərlə yazdılar: "Məhz onların rəşadəti sayəsində əldə olunan bu Şanlı Zəfər ölkəmizin ərazi bütövlüyünü bərpa etdi, xalqımız otuz illik həsrətdən sonra tarixi torpaqlarımıza qovuşdu. Gənclərimiz Vətən uğrunda döyüşlərlə yanaşı, ölkəmizlə bağlı həqiqətlərin, işğalçı Ermənistanın əzəli torpaqlarımızda törətdikləri vandallıq aktlarının beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılmasında fəal iştirak ediblər".

**Görüşə və göstərilən diqqətə görə təşəkkür edən İlkin Bədirxanov vurğulayıb ki, ölkəmizdə gənclərin müasir elmi biliklərə yiyələnməsi, onların sağlam mühitdə yetişməsi, malik olduqları potensiallarından yararlanmaları üçün hər cür şərait yaradılır.**

Qeyd edək ki, İlkin idmanda qazandığı uğurları ilə yanaşı, həm də nümunəvi işçidir. 2016-cı ildən "Bakı Metropoliteni" QSC-nin yol xidmətində elektrik vəzifəsində çalışır. Kollektivin rəhbərliyi ilə yanaşı, çiyin-çiyinə çalışdığı həmkarları da onu nümunəvi işçi kimi səciyyələndirirlər.

İlkin Bədirxanov "Bakı Metropoliteni" QSC yaradılana qədər metro inşaatında çalışıb. Daha sonra isə bilik və bacarığı onu yol xidmətinə gətirib.

***Sonda İlkin Bədirxanova idman sahəsində əldə etdiyi nailiyyətlərə görə təşəkkür olunub və hədiyyə təqdim edilib.***

# Aktiv tələbələrlə görüş

**Azərbaycan Tibb Universitetininin rektoru, professor Gəray Gəraybəylinin 2 Fevral - Azərbaycan Gəncləri Günü münasibətilə aktiv tələbələrlə görüşü olub. Əvvəlcə Vətən müharibəsi şəhidlərinin xatirəsi birdəqiqəlik sükutla yad edilib.**



Sonra rektor çıxış edərək bildirib ki, 44 günlük Vətən müharibəsi zamanı Azərbaycan xalqı dünya ictimaiyyəti qarşısında nəyə qadir olduğunu bir daha göstərdi. Şübhəsiz, bu qələbənin, zəfərin reallaşmasında gənclərimizin əvəzsiz rolu oldu. Biz bunu hər zaman qeyd etməliyik və unutmamalıyıq.

Rektor ümummilli lider Heydər Əliyevin gənc nəslin tərəqqipərvər, vətənpərvər kimi formalaşmasında əvəzsiz xidmətlərindən geniş söhbət açdı. Onun gənclərin təhsilini daim diqqətdə saxladığını vurğuladı. Məhz onun tapşırığı ilə Azərbaycanın perspektivli gənclərinin keçmiş SSRİ-nin ən prestijli ali məktəblərinə təhsil almaq üçün göndərildiyini söylədi, Azərbaycan gəncliyinin ikinci yüksəliş dövrü Respublika Prezidenti cənab İlham Əliyevin adı ilə bağlıdır dedi. O, gənc nəslin intellektual səviyyəsinin yüksəlməsi, mədəniyyət, idman sahəsində dünya miqyasında layiqli yer tutması naminə böyük işlər gördü. Gəncləri ətrafında birləşdirməyi bacardı. Prezidentinə inamın nəticəsini II Qarabağ müharibəsində bütün yaxın, uzaq ölkələrin vətəndaşları da gördü və həsəd apardı.

**Professor G.Gəraybəyli həmçinin ATU-da aparılan islahatlar barədə geniş danışdı. Daha sonra ATU Tələbə Həmkarlar İttifaqı Komitəsinin sədri Qoşqar İsmayılov və tələbə Cavid Mustafazadə çıxış etdi. Onlar dövlətimizin gənclərə göstərdiyi hərtərəfli qayğıdan, universitetdə tələbələr üçün yaradılan yüksək şəraitdən bəhs etdilər. Sonda təhsildə uğurları və universitetin ictimai həyatında aktivliyi ilə seçilən tələbələr Məhəmməd Məmmədov, Vahid Rzayev, Dilbər Əliyeva, Cavid Mustafazadə, İlkanə Quluzadə, Aysel İsmixanova, Lamiyə Səhratzadə, Nailə Əhmədova, Eltac Əlizadə, Şahverdi Mirzəyev, Aliyə Şahbazova, Arzu Musayeva, Natiq Kərimov və Fidan Seyfullayevaya Fəxri Fərman təqdim olundu.**

"İlin peşəkar gənci" müsabiqəsinin qalibləri

# İbtidai sinif müəllimi daha çox məsuliyyət daşıyır

**İnsan yaşa dolduqca həyatında baş vermiş çox hadisələri unudur. Amma lap qocalanda da uşaqlıq illərinin xatirələrini qiymətli miras kimi yaddaş sandıqcasında saxlayır. Niyə belədir? Elm də sübut edib ki, uşaqlıq dövrü yaddaşın, qavrama qabiliyyətinin ən parlaq vaxtıdır. İnsan məhz kiçik yaşlarında görüb, eşitdiklərinin, oxuduqlarının təsiri altında formalaşır. Başqa sözlə desək, uşaq dərrakəsi məhsuldar tarladır. Onun gələcək xarakterinin toxumları mühit tərəfindən bu tarlaya səpilir və cücərdilir. Toxum hansı məhsulundursa, o məhsul da yetişəcək. Mühit dediyimiz anlayışda mühüm, bəlkə də ən birinci mövqedə məktəbdir. Özü də ibtidai təhsil. Bu həqiqəti dərk edən orta təhsil məktəbləri müəllimləri az deyil. Bəlkə də çoxdur. Sadəcə, dərk etdiyi bu həqiqəti daha peşəkarcasına həyata keçirən və ya öhdəsindən istənilən səviyyədə gəlməyi bacarmayan müəllimlər var. Belə peşəkar müəllimlərdən biri olan Çiçək Əhmədova Bakının Səbail rayonundakı 203 saylı tam orta məktəbdə çalışır. O, 2012-ci ildə bu məktəbdə ibtidai sinif müəllimi kimi əmək fəaliyyətinə başlayıb. Çiçək müəllimə özü məktəb partası arxasında əyləşəndə sayılıb-seçilən şagirdlərdən olub. Bütün fənlər üzrə yüksək qiymətlər alıb. Amma məhz ibtidai sinif müəlliməsi olmağı qarşısına məqsəd qoyub. Niyə? Deyir ki, uşaqları çox sevirəm. Uşaqlara qayğı göstərməkdən böyük ləzzət alıram. Başqalarını bilmirəm, şəxsən mən ibtidai sinif müəllimini daha çox məsuliyyət daşıyan, təhsilimizin, cəmiyyətimizin bünövrəsini qoyan peşə sahibi sayıram.**




Yuxarı sinif müəllimlərinin uğuru, uğursuzluğu ibtidai sinif müəllimlərinin uşaqları necə, hansı səviyyədə təhsilə cəlb etməsindən, yuxarı siniflərə hazırlanmasından asılıdır.

Çiçək müəllimənin öz dəst-xətti var. O, valideynlərlə sıx əlaqə saxlayır. Valideynlərdən övladlarının xasiyyətini, istək və maraq dairəsini öyrənir. Və bu maraq dairəsinə uyğun da fənləri tədris edir. Deyir ki, uşaqlar sərbəstliyi, əyləncəni sevirlər. Mən çalışıram ki, şagirdlərim özlərini sinifdə tam sərbəst, lap elə evlərindəki kimi hiss etsinlər.

**Çiçək müəllimə şagirdlərinin vətənpərvərlik tərbiyəsinə xüsusi diqqət yetirir. Vətənimizin görkəmli şəxsiyyətlərini, qəhrəman oğullarını, ölməz şəhidlərini tanıtmaq məqsədilə onların keçdiyi həyat yolunu uşaqlara nümunə kimi aşılayır.**

Çiçək müəllimə milli- mənəvi dəyərlər əsasında tərbiyəyə də xüsusi yer verir. Milli bayramların qeyd edilməsi, adət-ənənələrimizin öyrənilməsi, tolerantlıq və multikulturalizm kimi xalqımıza xas xüsusiyyətlərin təbliği Çiçək müəllimənin fəaliyyətinin mühüm hissəsidir.

**Onun pedaqoji kollektivlə əməkdaşlıq əlaqələri də qarşılıqlı hörmət və yardımçı olmaq prinsipi üzərində qurulmuşdur. Tez-tez əmək təcrübəsi daha çox olan müəllimlərin dərslərini dinləyir və özü də nümunəvi dərslər keçir.**

Daim öz üzərində işləməyi sevir. Çalışır ki, zamanın inkişaf tempindən geri qalmasın. Bakı Tədris Mərkəzində müxtəlif kompüter proqramlarını mənimsəyir, "Bədən dili: şüuraltının sirləri", " Müasir tərbiyə metodları" və sair təlimlərdə iştirak edib. Azərbaycan Dövlət Pedaqoji Universitetin 90 illiyinə həsr olunmuş pedaqoji fakültə tələbələrinin elmi-praktik konfransında birinci yeri tutub.

Ç.Əhmədova həm də fəal ictimaiyyətçidir. Məktəb, rayon həmkarlar ittifaqı komitələrinin tədbirlərinin daimi iştirakçılarındandır. Təsadüfi deyil ki, Təhsil İşçiləri Azad Həmkarlar İttifaqının yubiley "Döş nişanı" ilə təltif edilib. 2021-ci ildə isə AHİK-in təsis etdiyi "İlin peşəkar gənci" müsabiqəsinin rayon turunun qalibi olub.

**Bütün bu xüsusiyyətləri Çiçək müəlliməni həm şagird, həm valideyn, həm də müəllim kollektivinin sevimlisinə çevirmişdir. İnanırıq ki, Ç.Əhmədova gələcəkdə də dövlətimizə, xalqımıza layiqli vətəndaşlar yetişdirmək üçün əlindən gələni edəcək.**

# Azərbaycanda vətəndaş cəmiyyətinin inkişafında həmkarlar ittifaqlarının rolu

əvvəli ötən sayımızda

**Deməк olar ki, həmkarlar ittifaqları ictimai həyatın bir çox sahələrini əhatə etməklə, təyinatından asılı olmayaraq, bütün müəssisələrdə fəaliyyət göstərirdi. Bu da insanların əmək hüquqlarının qorunması ilə yanaşı, onların birləşməsində, sosiallaşmasında da mühüm əhəmiyyətə malik idi. Bu birlik müstəqilliyə gedən yolda insanların siyasi ideyalarının formalaşmasında, təşkilatlanmasında, birgə mübarizədə xalqımızın çox işinə yaradı və müstəqilliyimizin əldə olunmasında müəyyən pay sahibi oldu.**

Lakin müstəqilliyin ilk vaxtlarında bütün sahələri bürüyən böhran ictimai təşkilatların fəaliyyətinə də mənfi təsir etmişdir. İstehsal müəssisələrinin, zavodların, fabriklərin fəaliyyətini dayandırması, işsizliyin artması, o cümlədən ölkənin ictimai-siyasi həyatında hökm sürən gərginlik ən böyük və kütləvi təşkilat olan həmkarlar ittifaqlarının fəaliyyətinin miqyasını və keyfiyyətini aşağı salmış, sosial bazasını zəiflətmişdi. Ölkə rəhbərliyi tərəfindən də bu təsisata laqeyd münasibət vəziyyəti daha da ağırlaşdırırdı. Hətta həmkarlar ittifaqlarının mülkiyyəti hesab olunan inzibati binasını belə əlindən almağa çalışırdılar. Həmkarlar ittifaqlarının qətiyyəti və atdığı qabaqlayıcı addımlar onların bu istəklərini həyata keçirməyə imkan vermədi.

Nəhayət, 1993-cü ildə ulu öndər Heydər Əliyevin xalqın tələbi əsasında yenidən ölkə rəhbərliyinə gəlməsi ilə bütün sahələrdə olduğu kimi, ictimai təşkilatların, o cümlədən həmkarlar ittifaqlarının da həyatında köklü dəyişikliklər baş verdi, ictimai proseslərə səlahiyyətləri çərçivəsində müdaxilə etmək imkanları artdı. Bu da demokratik dövlət quruculuğu yolunda Ulu Öndərin həyata keçirməyə başladığı tədbirlərin tərkib hissəsi idi. Ölkənin ağır, çətin vəziyyətində - 1993-cü il iyulun 17-də AHİK-in İcraiyyə Komitəsi həmkarlar ittifaqı üzvlərinə müraciət etdi. Müraciətdə işsizlik, inflyasiya, qıtlıq, minimum əməkhaqqının minimum istehlak büdcəsindən dəfələrlə aşağı olması kimi problemlərdən narahatlıq ifadə olunurdu. Bildirilirdi ki, sosial cəhətdən aztəminatlı adamların - qaçqınların, çoxuşaqlı ailələrin, şəhid ailələrinin bütün problemlərinin tədricən həll olunması üçün həmkarlar ittifaqları var qüvvəsi ilə çalışır. Həmçinin təəssüf hissi ilə qeyd olunurdu ki, cəmiyyətdə olan qarşıdurma, parçalanma həmkarlar ittifaqlarının da işinə mane olur.

**Beləliklə, həmkarlar ittifaqları ictimai təşkilat olaraq, Ulu Öndərin xilaskarlıq missiyasını dəstəkləyərək əmək adamlarının sosial, iqtisadi və mədəni həyatının, rifah halının yaxşılaşdırılması, hüquqlarının qorunması, həmçinin ölkənin bütövlüyü, ictimai-siyasi, sosial-iqtisadi böhranın aradan qaldırılması üçün öz funksiyaları və səlahiyyətləri çərçivəsində aktiv mübarizəyə qoşuldu.**

Üzvlərinin rəyini nəzərə alaraq və maraqlarından çıxış edərək AHİK 1993-cü ildə Heydər Əliyevin ölkə Prezidentliyinə namizədliyini birmənalı şəkildə dəstəklədi. Həmçinin AHİK prezident seçkiləri ilə əlaqədar olaraq prezidentliyə Heydər Əliyevin namizədliyinin müdafiə olunması barədə həmkarlar ittifaqları orqanlarının təkliflərini bəyənmiş və sahə həmkarlar ittifaqı respublika komitələrinə müvafiq tədbirlərin görülməsi üçün tövsiyələr verilmişdir.

**AHİK sədri Səttar Möhbalıyev Heydər Əliyevin Azərbaycan Respublikasının Prezidenti seçilməsi münasibətilə 1993-cü il oktyabrın 10-da həmkarlar ittifaqları adından Prezidentə təbrik məktubu ünvanlamışdı.**

Ulu Öndərin bütün siyasi fəaliyyətinin mərkəzində Azərbaycan dövlətinin maraqları, xalqın sosial-iqtisadi vəziyyətinin yüksəldilməsi, ölkədə demokratik prinsiplərin bərqərar olması, vətəndaş cəmiyyətinin inkişafı dururdu. Bu yolda həmkarlar ittifaqlarının fəaliyyətini nəzərə alaraq ona hər zaman dövlət qayğısı göstərir, işçilərin hüquqlarının qorunması, maraqlarının təmin olunması, sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində fəaliyyətini dəstəkləyirdi.

**Prezident seçilməsindən cəmi bir il sonra - 1994-cü ildə Ulu Öndərin şəxsi təşəbbüsü və nəzarəti altında keçmiş postsovet məkanında ilk dəfə olaraq Azərbaycanda "Həmkarlar ittifaqları haqqında" qanun qəbul edildi. Beləliklə, qurumun cəmiyyətdəki fəaliyyətinin yeni prinsiplər əsasında tənzimlənməsi və vətəndaşlarımızın sosial-iqtisadi mənafelərinin qorunmasında fəal iştirakı üçün hüquqi baza yaranmış oldu.**

Bu, Heydər Əliyevin demokratik yöndə inkişaf edən vətəndaş cəmiyyətinə verdiyi dəyərin əlamətdir. Bununla da təşkilatın fəaliyyəti genişləndi, əvvəlki nüfuzu özünə qaytarıldı, üzvlərin sayı artmağa başladı, ictimai təşkilat kimi qarşısında sərbəst və müstəqil imkanlar açıldı.

Bu qanun öz dəyərinə, məzmununa görə bir çoxlarına demokratiyanı sözdə yox, işdə dəstəkləməyin parlaq nümunəsi oldu. Azərbaycanda bu qanunla yanaşı, əməkçilərin sosial müdafiəsinə yönəlmiş çoxsaylı digər hüquqi-normativ aktların qəbulu, Beynəlxalq Əmək Təşkilatının əsas konvensiyalarının Milli Məclis tərəfindən ratifikasiyası ittifaqların normal işləməsi üçün münbit şərait yaratdı.

**Bununla da istər Milli Məclisdə, istərsə də Nazirlər Kabinetində əhalinin sosial-iqtisadi problemlərinin həlli ilə bağlı mühüm məsələlərə dair qərarların qəbulunda onun verdiyi təkliflər əsas yerlərdən birini tutmağa başladı.**

Əmək, sosial, iqtisadi məsələlər barəsində qanunvericilik aktlarının hazırlanmasında həmkarlar ittifaqlarının hüquqları tanındı, Azərbaycan həmkarlar ittifaqları beynəlxalq həmkarlar ittifaqları hərəkatının tərkib hissəsinə çevrildi.

Yeni tələblərə və reallıqlara uyğun olaraq, demokratik prinsip və dəyərləri özündə əks etdirən yeni qanunla işçilərə, pensiyaçılara, təhsil alan şəxslərə öz istəkləri ilə, könüllü surətdə həmkarlar ittifaqları yaratmaq, həmkarlar ittifaqlarına daxil olmaq və həmkarlar ittifaqı fəaliyyəti ilə məşğul olmaq hüququ verildi.

**Qanun qurumun tam müstəqil fəaliyyət göstərməsini təmin edirdi, dövlət orqanlarının və vəzifəli şəxslərin həmkarlar ittifaqlarının hüquqlarının məhdudlaşdırılmasına səbəb olan, qanuni fəaliyyətlərinə maneçilik törədən hər cür müdaxiləsi qadağan olundu və bütün həmkarlar ittifaqlarına bərabər hüquqlar verildi.**

**Emin MƏMMƏDOV**

davamı növbəti sayımızda

# Pensiya məbləğində artımlar bu qədər olacaq

**Fevralın 8-də Prezident İlham Əliyev "Əmək pensiyaçılarının sosial müdafiəsi sahəsində əlavə tədbirlər haqqında" Sərəncam imzalayıb.**

Millət vəkili, iqtisadçı alim Vüqar Bayramov bildirib ki, Sərəncama əsasən, pensiya məbləği və eləcə də kapitalının indeksasiyası ilə yanaşı, əmək pensiyaçılarına rüblük yardımların edilməsi nəzərdə tutulub. Yardım COVID-19 pandemiyasının, habelə beynəlxalq bazarlardakı qiymət artımlarının ölkədaxili inflyasiyaya və əmək pensiyaçılarının sosial rifahına mənfi təsirlərinin yumşaldılmasına xidmət edir.

Belə ki, əmək pensiya məbləğləri 2021-ci ildəki orta aylıq məbləğinə, pensiya kapitalı isə illik infilyasiya səviyyəsinə indeksasiya olunacaq. Ötən il orta aylıq əməkhaqqı 3,4 faiz artıb, rəsmi infilyasiya səviyyəsi isə 6,7 faiz olub. Qeyd edək ki, indeksləşdirmə, yəni artımlar bütün növ əmək pensiyalarına şamil olunur. "Əmək pensiyaları haqqında" qanunun 4-cü maddəsinə əsasən, əmək pensiyalarının 3 növü təsbit olunub. Bunlar yaşa görə əmək pensiyası, əlilliyə görə əmək pensiyası və ailə başçısını itirməyə görə əmək pensiyasıdır. Deməli, vətəndaşımız, növündən asılı olmayaraq, əmək pensiyası alırsa, onun pensiya məbləğinə artım hesablanacaq.

**Sənəddə əmək pensiyaçılarına il ərzində yardımın nəzərdə tutulması həmin vətəndaşlarımızın sosial təminatının gücləndirilməsi baxımdan vacib addımdr. Həmin vəsait rüblər üzrə bölünməklə pensiyaçılara ödəniləcək və ilkin ödəniş fevral ayının pensiyaları ilə birgə veriləcək. Eyni zamanda yanvar ayı üçün nəzərdə tutulan indeksasiya artımı da fevral ayının pensiyası ilə birlikdə ödəniləcək.**



Millət vəkili deyib ki, son Sərəncamda nəzərdə tutulan yardım orta pensiya alan vətəndaşlarımızın pensiya məbləğlərində artımlara təsir göstərəcək. Belə ki, 250 manat pensiya alan vətəndaşımızın pensiya məbləğinə aylıq olaraq orta hesabla 17 manata (200 manat/12) yaxın əlavə deməkdir. Bu 250 manat pensiya alan vətəndaşımızın pensiya məbləğində 6,6 faiz artım deməkdir (17 manat/250 manat X 100.0%). Indeksasiya faizini də nəzərə aldıqda bu 250 manat pensiya alan vətəndaşımızın pensiya məbləğinin son sərəncamla 10.0 faiz (6.6 % +3.4 %) artacağı anlamına gəlir.

**Nəzərdə tutulan yardım 300 manat pensiya alan vətəndaşımızın pensiya məbləğində isə 5,6 faiz artım deməkdir (17 manat/300 manat X 100.0%). Indeksasiya faizini də nəzərə aldıqda bu 300 manat pensiya alan vətəndaşımızın pensiya məbləğinin 9.0 faiz (5.6 % +3.4 %) artmasıdır.**

**Azər MUSTAFAYEV**

# Digər rayonlarımıza da səfərlər təşkil ediləcək




**Yanvarın 24-dən başlayaraq Şuşa və Ağdam şəhərlərinə ilk sərnişin avtobusları yola düşüb. Şuşa və Ağdam şəhərlərinə avtobus reyslərinin açılması Qarabağın azad edilmiş digər bölgələrindən olan sakinləri də öz torpaqlarını görmək üçün həvəsləndirib. Bununla bağlı bir çox vətəndaşlarımız adiyyəti qurumlara müraciətlər ünvanlayıb. Xüsusi nəzarət tədbirləri çərçivəsində azad edilmiş rayonlarımıza, eləcə də Şuşa şəhərinə vətəndaşlarımızın avtobusla səfərinə icazə verilməsi turizm zonalarının minalardan təmizlənməsinin bir daha vacibliyini, prosesin tezləşdirilməsini şərtləndirir.**

Hazırda Qarabağda minalardan təmizlənmə işləri hansı miqyasda həyata keçirilir? Daha çox hansı ərazilərə üstünlük verilir?

**Suallarımızı millət vəkilləri Elşad Mirbəşirov və Ceyhun Məmmədova ünvanladıq.**

"Təbii ki, işğaldan azad edilmiş ərazilərimizdə tikinti, intensiv quruculuq işlərinin getməsi hər şeydən öncə təhlükəsizliyin təmin olunmasını zəruri edir. Xatırlatmaq istərdim ki, Azərbaycan Prezidenti cənab İlham Əliyev dəfələrlə Ermənistan tərəfinə, onun havadarlarına çağırış edərək minalanmış Azərbaycan torpaqlarının dəqiq xəritəsinin təqdim olunmasını istəyib"- deyə **E.Mirbəşirov** bildirib. O qeyd edib ki, bu, sülhün ən vacib şərtlərindən biridir.

**Bildiyimiz kimi, Ermənistan tərəfi minalanmış ərazilərin xəritələrini Azərbaycana təqdim edib. Lakin, cənab Prezidentin qeyd etdiyi kimi, bu xəritələrin dəqiqliyi təxminən 25% təşkil edir. Məsələnin başqa bir tərəfi də ondan ibarətdir ki, ermənilər güman ki, yenə də müharibə qanunlarına zidd davranaraq Azərbaycan torpaqlarını sistemsiz şəkildə minalamışdır. Təkcə Kəlbəcər ərazisinə külli miqdarda minanın basdırılması haqqında elə Ermənistan mətbuatı özü xəbər vermişdir. Sistemsiz şəkildə bu ərazilərin minalanması hələ uzun müddət öz fəsadlarını göstərəcək. Lakin Azərbaycan tərəfi ərazilərin minalardan təmizlənməsi üçün öz resurslarını səfərbər etməkdədir və hazırda uğurlu nəticələr əldə edilir.**

Millət vəkili ərazilərimizdə kifayət qədər əsaslı işlərin həyata keçirildiyini də vurğuladı. Əlavə etdi ki, azad edilmiş torpaqlarımızın nəqliyyat xəritəsinin, demək olar ki, bütün konturları bəllidir. Həmin ərazilərdə 11 avtomobil yolu çəkilir. Onların bəziləri artıq tamamlanmışdır. 3 istiqamətdə dəmiryolu xətti çəkilməkdədir. Füzuli rayonunda 8 ayda hava limanı inşa edilib istifadəyə verildi. Hazırda Zəngilan rayonunda hava limanının inşası sürətlə davam etməkdədir.

E.Mirbəşirov onu da qeyd etdi ki, Ağalı kəndində "ağıllı kənd" konsepsiyasına uyğun quruculuq işləri aparılır. Bundan sonra isə Dövlətyarlı kəndində "ağıllı kənd" konsepsiyası həyata keçiriləcək. Müvafiq olaraq bu ərazilərin minalardan təmizlənməsi işləri sürətləndirilir.

**Şuşa, Ağdam şəhərləri istiqamətində yolların çəkilişi, ərazilərin müəyyən bir qisminin minalardan təmizlənməsi o bölgələrə səfər imkanı yaradıb. Növbəti rayonlarımız Cəbrayıl, Qubadlı, Zəngilan, Kəlbəcər və digər bölgələrimiz ola bilər. Öncə isə yaşlı nəslin, şəhid ailələrinin nümayəndələri və veteranların səfərinin təşkil edilməsi lazımdır.**

**Ceyhun Məmmədov** isə bildirdi ki, Cəbrayıl və Qubadlıya da səfərlərin təşkili ilə bağlı zamanla müxtəlif qurumlara müraciətlər ünvanlanıb. Bununla bağlı hazırda müəyyən işlər həyata keçirilir. Hazırkı mərhələdə öncə Ağdam və Şuşa şəhərlərinə səfərlər təşkil edilir. Çünki minalardan təmizlənmə, abadlıq, bir sıra işlərin görülməsi burada daha sürətlə həyata keçirilib. Ümumən götürdükdə isə, Şuşa və Ağdam şəhərlərində elə çox mina yox idi. Həm də əhalinin bu ərazilərə getməsi üçün hazırda təhlükəsizlik baxımından daha geniş imkanlar mövcuddur.

Düşünürəm ki, növbəti mərhələdə isə digər rayonlarımıza, o cümlədən Cəbrayıl və Qubadlıya səfərlərin təşkilinin şahidi olacağıq.

**Millət vəkilli onu da qeyd etdi ki, bildiyimiz kimi, müharibədən sonra düşməndən azad edilmiş ərazilərimizə qanunsuz səfər edən yüzə yaxın vətəndaşımız minaya düşərək həlak olub və müxtəlif dərəcəli bədən xəsarətləri alıb. Təbii ki, insanların Qarabağımızı tezliklə görmək həyəcanını anlayırıq, lakin öz sağlamlıqları üçün bütün təhlükəsizlik tədbirlərinə əməl etməlidirlər. Yaxın zamanlarda xüsusi nəzarət tədbirləri çərçivəsində vətəndaşlarımız işğaldan azad edilmiş ərazilərimizə mərhələli şəkildə səfər edə biləcəklər.**

**M. GÜLÖYŞƏ**

# Hələ də yanğınlardan həyatını itirənlər olur

## səbəbi nədə, günahı kimdə axtaraq

**Statistik məlumata əsasən, ölkəmizdə 2012-ci ildən bu günə kimi yaşayış binalarında 5 minə yaxın yanğın hadisəsi baş verib. Bu yanğınlarda 400-ə yaxın insan həlak olmuş, 500-dən çoxu isə müxtəlif dərəcəli xəsarətlər almışdır. Ölkəmizdə hazırda inşa edilən binalarda təhlükəsizlik qaydalarına nə dərəcədə riayət edilir? Yarana biləcək neqativ halların və insan tələfatı ilə nəticələnəcək hadisələrin qarşısını almaq üçün hansı tədbirlər görmək lazımdır?**

**Suallarımızı, təhlükəsizlik məsələləri üzrə ekspert Elmar Nurəliyev, novator-memar Muxtar Ərturan və elektroenergetika üzrə ekspert Namiq Ramazanov cavablandırıb.**

***Elmar Nurəliyev*** bildirdi ki, yaşayış binalarının sakinləri zavod, fabrik, hökumət və qeyri-hökumət təşkilatlarında çalışanlar yanğın təhlükəsizliyi qaydalarına ciddi riayət etməlidirlər. Müəssisələrin yanğın təhlükəsizlik sistemi, ehtiyat pilləkənləri olmalıdır. Çoxmənzilli yaşayış binaları layihələndirilən zaman zəruri olan təhlükəsizlik qaydaları, norma və standartlar nəzərə alınmalıdır. Təhlükəsizlik qaydalarına həmçinin ekoloji təhlükəsizlik, sanitar-gigiyenik normalar da daxildir. Sakinlər və işçilər yanğın təhlükəsizliyi qaydaları barədə təlimatlandırılmalıdırlar.

**Ekspert qeyd etdi ki, binaların tikintisi zamanı keyfiyyətli və ekoloji təmiz tikinti materiallarından istifadə edilməli, binalararası məsafə gözlənilməlidir. Fövqəladə vəziyyətlərdə bina ətrafında təhlükəsiz toplanış yeri olmalıdır. Binaların həyətinə giriş yollarında əlavə tikili və qurğular, avtomobillərin park edilməsi, hərhansı maneələrin quraşdırılması yolverilməzdir. Yəni fövqəladə vəziyyətdə, yanğın təhlükəsi zamanı xilasetməyə gələn qurumların maşınları, yanğınsöndürən maşınların rahat və maneəsiz hərəkəti təmin olunmalıdır ki, vaxtında müdaxilə olunsun, insanlar az zərər çəkməklə hadisənin qarşısı alınsın.**

***E.Nurullayev*** binaların bir-birinə çox yaxın məsafədə inşa olunduğunu yaxud beşmərtəbəli binaların arasında 16 mərtəbəli binaların tikilməsini qeyri-məqbul sayır. Dedi ki, belə binalar yanğın təhlükəsizliyinə dair vasitələrlə təhciz edilməyib. Normaya görə, 50 metr hündürlüyündə olan binadan yalnız 30 metr uzaqda bina tikilə bilər. Təəssüflər olsun ki, hazırda binaların çoxunda ara məsafə, demək olar ki, yoxdur və İnsanların təbii günəş şüası almaq hüququnu belə pozurlar. Belə olan halda orada yaşayan insanların həyatı üçün, əlbəttə, təhlükə olacaq.

Onu da qeyd edim ki, bir çox binalarda nə yanğın hidrantları, nə də ehtiyat su çəni var, varsa da işlək deyil, yolun hərəkət hissələri maneələrlə doludur, maşınları yolun üzərində park edirlər. Bütün bunlar da hadisəyə vaxtında müdaxiləyə mane olan səbəblərdəndir. Bina komendantları bunu təşkil etməlidir, sakinlər başa düşməlidir ki, bu onların öz həyatı üçün vacibdir. Eyni zamanda binanın tkintisi zamanı əgər yanğın təhlükəsizliyinə dair tələblərə riayət edilmirsə, insanların həyat və sağlamlığı üçün təhlükə riski varsa, onun tikintisinə icazə verilməməlidir.

***Muxtar Ərturan*** dedi ki, statistik göstəricilərdən də görüldüyü kimi, yanğın zamanı əsas insan tələfatını yaradan səbəb boğulmadır. Apardığımız müşahidələrdən belə qənaətə gəlmək olar ki, ölkəmizin paytaxt ərazisində inşa edilmiş binaların 20-30 faizində, ümumiyyətlə, təhlükəsizlik qaydalarına riayət olunmur. Əsasən paytaxtın Yasamal, Binəqədi, Nərimanov, Xətai rayonlarında və bir sıra yerlərində belə hallara daha çox rast gəlinir. Bu binaların bəzilərində təxliyə planları düzgün tərtib olunmayıb. Digərlərində isə layihə üzərində düzgün tərtib olunsa da, icra zamanı düzgün həyata keçirilməyib. Hətta köhnə binaların 70 faizində təxliyə pilləkənləri yoxdur, olanların da inşaat normalarına heç bir aidiyyəti yoxdur. Bir çoxlarında isə odadavamlı qapı əvəzinə, adi plastik qapı qoyulur.



***M.Ərturan*** **hazırda Azərbaycan inşaat bazarında keyfiyyətsiz naqillərin çoxluğunu, yerli istehsalın keyfiyyətsizliyini və bunlara nəzarət mexanizminin acınacaqlı halda olduğunu vurğuladı. Dedi ki, bu naqilləri ələ götürdüyümüz zaman biz görürük ki, tərkibində olan misin keyfiyyəti və ya naqilin en kəsiyi standartlara uyğun deyil. Bu halların qarşısını almaq üçün məhsulun keyfiyyəti artırılmalı və nəzarət mexanizmi gücləndirilməlidir.**

Eyni zamanda hündürmərtəbəli binalarda mütləq qaydada avtomatik yanğınsöndürmə sistemi qoyulmalı, dəhlizlərdə xəbərdaredici məlumatlar olmalıdır. İl ərzində iki dəfə yoxlama aparılmalı, planlı yoxlama zamanı xəta varsa, protokol tərtib olunmalıdır.

***Namiq Ramazanov*** **isə yaşayış binalarında baş verən yanğınların əksəriyyətinin elektrik şəbəkəsinin yüklənməsi ilə bağlı olduğunu bildirdi. Əlavə etdi ki, insanların əksəriyyəti yaşayış evlərində elektrik xətlərinin çəkilişi zamanı elektrotexniki norma və qaydaların tələblərini pozur. Bir çox hallarda evlərdə düzgün elektrik açarları seçilib qoyulmur. Vətəndaşlar həmin işləri peşəkar elektriklərə həvalə etmirlər və bu da bəzən onların həyatlarını itirməsinə səbəb olur.**

**Gülöyşə MƏMMƏDLİ**

# Vergi Məcəlləsinə edilən dəyişikliklər

**Məlum olduğu kimi, Vergi Məcəlləsinə təklif edilən dəyişikliklər təsdiq edilib və 2022-ci il yanvarın 1-dən qüvvəyə minib. Dəyişikliklərin əsas istiqamətləri sahibkarlıq fəaliyyətinin təşviq edilməsi, vergitutma bazasının genişləndirilməsi, sosial xarakterli güzəştlər vasitəsilə əhalinin maliyyə-vergi yükünün azaldılması, vergi uçotunun, vergitutma və vergi nəzarəti mexanizmlərinin təkmilləşdirilməsi, sahibkarlıq subyektlərinə vergi təşviqlərinin verilməsi və s. istiqamətləri əhatə edir.**



## Gəlir vergisi üzrə güzəştlər

Sosial xarakterli güzəştlər vasitəsilə əhalinin vergi yükünün azaldılması istiqamətində verilmiş təkliflərdən biri şəhid olmuş şəxslərin ailə üzvlərinə və Azərbaycan Respublikasının azadlığı, suverenliyi və ərazi bütövlüyü uğrunda aparılan hərbi əməliyyatlar nəticəsində əlilliyi müəyyən edilmiş hərbi qulluqçulara verilən maddi yardımın 10.000 manatadək olan hissəsi gəlir vergisindən azad edilibdir. Qeyd edək ki, hədiyyələrin, təhsil və ya müalicə haqlarını ödəmək üçün maddi yardımın, birdəfəlik müavinətin dəyərinin 1.000 manatadək olan hissəsi gəlir vergisindən azaddır və bu azadolma sosial statusundan asılı olmayaraq maddi yardım alan bütün fiziki şəxslərə tətbiq edilir.

**Beləliklə, 2022-ci il yanvarın 1-dən etibarən şəhid olmuş şəxslərin ailə üzvlərinə və hərbi əməliyyatlar nəticəsində əlil olmuş hərbi qulluqçulara və mülki şəxslərə dövlət tərəfindən göstərilən diqqət və qayğının davamı olaraq bu kateqoriyaya aid şəxslərə verilən və məqsədli təyinatından asılı olmayaraq maddi yardımların 10.000 manatadək olan hissəsi də gəlir vergisindən azad edilibdir.**

Gəlir vergisi üzrə digər bir dəyişiklik ölkə daxilində müalicə haqlarını, o cümlədən cərrahiyyə əməliyyatının haqqını ödəmək üçün maddi yardımın, birdəfəlik müavinətin dəyərinin 10.000 manatadək olan hissəsi, xaricdə müalicə haqlarını, o cümlədən cərrahiyyə əməliyyatının haqqını ödəmək üçün maddi yardımın, birdəfəlik müavinətin dəyərinin 40.000 manatadək olan hissəsinin gəlir vergisindən azad edilməsidir.

## Sosial güzəştlər

Vergi Məcəlləsinə edilmiş dəyişikliklər sırasında fiziki şəxslər tərəfindən əmlak təqdim edilməsi zamanı bir sıra obyektiv halların nəzərə alınması (mülkiyyəti təsdiq edən sənədlərin gec verilməsi, sökülən binaların əvəzinə vətəndaşlara yeni mənzilin verilməsi) ilə bağlı məsələlər də əhəmiyyət daşıyır. Əvvəlki vergi qanunvericiliyinə əsasən, fiziki şəxsin azı 3 təqvim ili üçün yaşayış yeri üzrə qeydiyyatda olduğu mənzilin satılması notariuslar tərəfindən ödəmə mənbəyində tutulan vergidən azad idi. Bu isə bir sıra problemlər yardırdı. Belə ki, bir sıra hallarda vətəndaşlar yalnız bir yaşayış sahəsinə sahib olmasına və həmin yaşayış sahəsində uzun müddət yaşamasına baxmayaraq, müvafiq binalar üzrə sənədləşmənin olmaması səbəbindən yaşayış yeri üzrə qeydiyyata düşə bilmirdilər. Bu zaman həmin vətəndaşlar yaşayış sahələrini satarkən yaşayış yeri üzrə 3 təqvim ilini əhatə edən qeydiyyat tələbi ödənilmədiyinə görə notariusda müqavilə təsdiq olunarkən onlardan vergi tutulurdu ki, bu da sosial ədalətlilik prinsipi ilə ziddiyyət təşkil edirdi.

Vergi Məcəlləsinə edilmiş dəyişikliklərə əsasən, fiziki şəxsin yalnız 1 yaşayış sahəsi olduqda və həmin yaşayış sahəsi üzrə qeydiyyatı təsdiq edən sənədi olmamasına baxmayaraq, həmin yaşayış sahəsində azı 3 təqvim ili ərzində yaşamasını təsdiq edən sənədlər (kommunal təşkilatların arayışları) olduğu halda, onun sadələşdirilmiş vergiyə cəlb edilməməsi nəzərdə tutulur. Əlavə olaraq, mənzil satışı zamanı vergilər hesablanarkən sökülmüş evlərin əvəzində fiziki şəxslərə yeni tikilmiş binadan mənzillər verilərkən tikilmiş binanın ünvanı fərqli olduğu halda, fiziki şəxsin sökülmüş evində azı 3 il müddətində yaşayış yeri üzrə qeydiyyatı varsa, onlar sadələşdirilmiş vergiyə cəlb edilməyəcəkdir.

## Sadələşdirilmiş vergi üzrə güzəştlər

**Vergi Məcəlləsinə edilmiş dəyişikliklərdən biri də fiziki şəxslər tərəfindən regionlarda yaşayış və qeyri-yaşayış sahələrinin, habelə torpaq sahələrinin satışı üzrə vergi yükünün azaldılmasıdır. Məlum olduğu kimi, fiziki şəxslər tərəfindən yaşayış və qeyri-yaşayış sahələri, habelə torpaq sahəsi satılarkən həmin daşınmaz əmlakın sahəsinin hər kvadratmetrinə verginin baza məbləği binalar üzrə 15 manat, torpaq sahələri üzrə (kənd təsərrüfatı təyinatlı torpaqlar istisna olmaqla) isə 0,5 manat olmaqla daşınmaz əmlakın yerləşdiyi zonadan asılı olaraq müvafiq əmsallar tətbiq edilməklə vergi öhdəliyi hesablanır. Dəyişiklikdən sonra ucqar yerlərdə yaşayan vətəndaşların bu əməliyyatları üzrə vergi öhdəliyini azaltmaq məqsədilə həmin zonalar üzrə verginin baza məbləğinə tətbiq edilən zona əmsalı 0,5-dən 0,3-ə endirilibdir. Beləliklə, fiziki şəxslərin mülkiyyətində olan torpaq, yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsi üzrə ödəmə mənbəyindən tutulan sadələşdirilmiş verginin məbləği 40 faiz azalıb.**

**Elbrus CƏFƏROV**

# Sağlamlıq və təhlükəsizlik birinci dərəcəli prioritet olmalıdır




**“Biz Beynəlxalq Əmək Təşkilatından (BƏT) əmək gigiyenasını və təhlükəsizlik texnikasını iş yerində əsas hüquqlardan biri kimi tanımasını tələb edirik. Bu, birləşmək azadlığı və məcburi əməyin, uşaq əməyinin və məşğulluq sahəsində ayrı-seçkiliyin aradan qaldırılması kimi vacibdir”, - deyə Beynəlxalq Həmkarlar İttifaqları Konfederasiyasının (BHİK) Baş katibi Şaran Barrou bildirib.**

O deyib ki, BƏT-in Yüzilliyi Sessiyasında bu barədə qərar qəbul olunsa da, üç ildir ki, ona əməl olunmur. Bu müddət ərzində 8,1 milyon insan iş yerində vəfat edib. İndi daha çox insan, işəgötürən onları müdafiə etmədiyindən, iş yerində aldıqları xəsarət və xəstəliklər ilə yaşayır.

Ş.Barrounun sözlərinə görə, COVID-19 pandemiyası bir daha göstərdi ki, işləyən insanlar daha çox gözləyə bilməz. İş yerində ölüm hallarının qarşısını almaq mümkündür. Son məlumatlar göstərir ki, iş yerlərində hər on saniyədə bir işçi ölür. Bunu etməklə BƏT bu dəhşətli ölümlərin və xəsarətlərin sayının azaldılmasına nail olacaq.

**BHİK və onun üzv təşkilatları hökumətləri aşağıdakı tədbirləri görməyə çağırır:**

-əməyin mühafizəsi və təhlükəsizlik texnikası üzrə BƏT-in əsas konvensiyalarının ratifikasiyası və həyata keçirilməsi;

-xüsusi təhlükələrlə bağlı bütün sahə konvensiyalarının ratifikasiyası və həyata keçirilməsi;

-həmkarlar ittifaqlarının və işəgötürənlərin nümayəndələrini birləşdirən əməyin mühafizəsi və təhlükəsizlik texnikası üzrə milli orqanlarının yaradılması;

-COVID-19-un tanınmış peşə xəstəliyi kimi tanınması da daxil olmaqla, hamı üçün iş sağlamlığı və təhlükəsizliyi xidmətləri və adekvat kompensasiya tələb edilməsi.

İşəgötürənlər iş yerlərində və təchizat zəncirlərində risklərin qiymətləndirilməsi və aradan qaldırılması üçün məsuliyyət daşımalı, sağlamlıq və təhlükəsizlik komitələri vasitəsilə profilaktika məsələlərində həmkarlar ittifaqları ilə məsləhətləşməlidirlər.

**BƏT daha çox iş görməlidir. İş yerlərində stresi, dayaq-hərəkət sistemi xəstəlikləri və COVID-19 kimi bioloji təhlükələr haqqında problemləri həll etmək lazımdır. COVID-19-un iş yerində təhlükə kimi tanınması vacibdir. Sağlamlıq və təhlükəsizlik işdə birinci dərəcəli prioritet olmalıdır.**

# “Paytaxtlarda rəqəmsal keçid və həmkarlar ittifaqlarının rolu”

**Yanvarın 25-26-da Avropanın Paytaxt Həmkarlar İttifaqları Mərkəzlərinin (ECTUN) illik XXI konfransı keçirilib. Epidemioloji vəziyyətlə əlaqədar toplantı onlayn formatda keçirilib. Ənənəvi olaraq Avropa Həmkarlar İttifaqları İnstitutu tərəfindən təşkil olunan konfransda qitənin 14 paytaxtının 20 təşkilatından 43 nümayəndə iştirak edib.**




İki gün davam edən tədbirdə “Paytaxtlarda rəqəmsal keçid və həmkarlar ittifaqlarının rolu” mövzusu müzakirə olunub. Konfransda ECTUN-un koordinatoru Kristina Teokari, Avropa Həmkarlar İttifaqları Konfederasiyasının və Pan Avropa Regional Şurasının Baş katibi Luka Visentini, Avropa Həmkarlar İttifaqı İnstitutunun Təhsil Departamentinin direktoru Vera dos Santos Kosta və digərləri çıxış ediblər.

**Luka Visentini qeyd edib ki, pandemiya, rəqəmsallaşma və məsafədən işə kütləvi keçid şəraitində işçilərə dəstək olmaq, daha yaxşı iş şəraiti uğrunda mübarizə aparmaq, lazımi avadanlıqla təmin etmək və iş vaxtının ədalətli uçotunu aparmaq xüsusilə vacibdir. Onun sözlərinə görə, Avropa Həmkarlar İttifaqları Konfederasiyası sosial tərəfdaşlarla yeni iş yerlərinin yaradılması, işçilərin təlimi və yenidən hazırlanması üçün maliyyə vəsaitinin əldə edilməsi üzrə fəal əməkdaşlığı davam etdirir. Rəqəmsallaşmanın geniş yayılmasına gəlincə, natiqin fikrincə, bəzi iş sahələrində maşınlar insanları əvəz etsə belə, nəzarət həmişə insanda qalmalıdır. Çoxları pandemiya başlayanda şəhərlərin buna hazır olmadığını qeyd etdi. Roma və Parisdəki həmkarlar ittifaqı mərkəzlərinin nümayəndələrinin bildirdiyinə görə, lazımi avadanlıq çatışmırdı, internetə çıxışda problemlər var idi, rəqəmsal savadsızlıq, əhalinin müxtəlif təbəqələri arasında uçurum genişləndi. Lissabonda, digər paytaxt regionlarında olduğu kimi, rəqəmsal platformalar da daxil olmaqla, daha çox insan qeyri-daimi məşğulluqla əhatə olunmuşdu. Belə işçilərin (çatdırılma, taksilər) heç bir sosial təminatları yoxdur, onlar heç cür qorunmur və yeni texnologiyalar yalnız işçilərin istismarını artırır.**

Qruplar şəklində müzakirələr zamanı nümayəndələr Avropa paytaxtlarında rəqəmsallaşdırma və “ağıllı” inkişaf mövzusunu müzakirə etmiş, müxtəlif problemlər qaldırmış və onların həlli imkanları araşdırılmışdır.

Konfrans ECTUN-un altı nəfərdən ibarət yeni daimi komitəsi seçilib. Moskva, Belqrad, Afina, Paris, London və Berlindən olan nümayəndələr üç il ərzində komitədə çalışacaqlar. Komitə üzvləri növbəti konfransların, müxtəlif aksiyaların və layihələrin hazırlanmasına, ETUC, PERC ITUC və digər Avropa və beynəlxalq təşkilatlarla qarşılıqlı fəaliyyətə cavabdeh olacaqlar.

ECTUN-un koordinatoru Kristina Teokari Avropanın Paytaxt Həmkarlar İttifaqları Mərkəzlərinin 2021-ci ildəki fəaliyyəti haqqında təqdimatla çıxış edib.

**Konfransın sonunda ECTUN üzvləri XXII konfransın 2023-cü ildə Belqradda, 2024-cü ildə isə Madriddə keçirilməsinə qərar verdilər.**

# Maliyyə böhranı iş yerlərinin ixtisarına səbəb olacaq



**Dəmiryolçuların, Dəniz və Nəqliyyat İşçiləri Milli Həmkarlar İttifaqı (RMT) London metrosu işçilərinin iş yerləri, pensiya və əmək şəraiti ilə bağlı narahatlıqlara görə martın 1 və 3-də tətil edəcəklərini bildirib. Tətil “Transport for London” (TfL) şirkətinin hökumətlə maliyyələşməni fevralın 18-dək uzatmaq barədə razılığa gəldikdən sonra baş verib.**

“TFL”-in nümayəndəsi deyib: “Biz hökumətlə maliyyələşdirməyə olan ehtiyaclarımızı müzakirə etməyə davam edirik. Fevralın 4-də hökumətlə razılığa gəldik ki, hazırkı maliyyələşdirmə sazişi fevralın 18-dək uzadılsın və bu müzakirələr başa çatsın”. Həmkarlar ittifaqından isə bildirilib ki, “TFL” pandemiya zamanı sərnişin axını və gəlirlərin kəskin şəkildə azalmasından sonra maliyyə vəsaitlərinin balanslaşdırma yollarını axtarmağa davam etdiyi üçün heç bir zəmanət yoxdur. Hökumət isə təcili maliyyələşdirmənin uzadılmasını təsdiqləməkdən imtina etdi.

**“RMT”-nin Baş katibi Mik Linç deyib ki, üzvlərimiz gələn ay tətil keçirəcəklər, çünki London Metropolitenində maliyyə böhranı iş yerlərinin ixtisarına səbəb olacaq, xidmət keyfiyyətini, təhlükəsizliyi və əmək şəraitini təhlükə altına qoyacaq. Bunlar pandemiya zamanı təxminən iki ildir ki, londonluları daşıdıqları üçün qəhrəmanlar kimi təriflənən həmin nəqliyyat işçiləridir. Heyət məqsədli şəkildə düşünülmüş bu böhranın əvəzini ödəməyəcək.**

Bu arada Muzdlu Nəqliyyat İşçiləri Assosiasiyası (TSSA) həmkarlar ittifaqı bildirib ki, “Network Rail” milli dəmir yolunda işçiləri məcburi ixtisar etməyə çalışsa, o da hərəkətə keçəcək. Həmkarlar ittifaqının dediyinə görə, şəbəkə dəmir yollarımızın təhlükəsiz istismarını təmin etmək üçün əsasən peşəkar və texniki işçilər olan 900-dən çox insanın iş yerini mərhələli şəkildə dayandırmağı planlaşdırır.

**Daha əvvəl bildirilmişdi ki, London metrosunun maşinistləri 2021-ci ilin noyabr-dekabr aylarında paytaxt metrosunun bir neçə xəttində gecə-gündüz hərəkətin bərpası ilə iş qrafikinin birtərəfli dəyişməsinə qarşı bir sıra tətillər keçiriblər.**




# ETİRAZ AKSİYASI KEÇİRİLƏ BİLƏR

**“Samsung Electronics” şirkəti həmkarlar ittifaqları ilə əməkhaqqının artırılması və əməkdaşlar üçün həvəsləndirici bonuslar barədə danışıqların iflasa uğramasından sonra tətillə üzləşə bilər. Şirkətin dörd həmkarlar ittifaqının üzvü olan işçilərin nümayəndələri fevralın 4-də Koreya əmək münasibətləri üzrə milli komissiyaya arbitraj haqqında ərizə veriblər. Bu addım şirkəti həmkarlar ittifaqları ilə 10 gün ərzində əməkhaqqı ilə bağlı razılığa gəlməyə məcbur edir. Əks təqdirdə şirkətin 50 illik tarixində ilk dəfə olaraq etiraz aksiyası keçirilə bilər. Həmkarlar ittifaqının bəyanatında deyilir ki, uzun danışıqlardan sonra şirkət saxtakarlıq edərək irəliləyişi birtərəfli qaydada gecikdirib.**

Qeyd edək ki, danışıqlar oktyabr ayında başlayıb. 2021-ci ilin martında təklif edilən müqavilə layihəsində “Samsung Electronics”in müstəqil şurası şirkətin 114 min işçisi üçün əməkhaqqının 7,5 faizə qədər artırılmasını, habelə baza maaşının 4,5 faizə qədər artırılmasını təsdiqləyib. Layihə həmkarlar ittifaqlarının hər bir əməkdaş üçün 10 milyon von (8350 ABŞ dolları) və illik əməliyyat mənfəətinin 25 faizi həcmində mükafat fondu əməkhaqqının artırılmasına çağırışını istisna edib ki, bu da 12,9 trilyon von olmuş və 2021-ci ilin nəticələrinə əsasən ödəniləcəkdir.

**Yanvar ayında həmkarlar ittifaqları şura tərəfindən təsdiq edilmiş saziş layihəsini rədd etdi. Ekspertlər həmkarlar ittifaqlarının tələbinin qeyri-real olduğunu və şirkətin inkişafına ziyan vurduğunu deyirlər. Fondun əməliyyat gəlirinin 25 faizlə bərabər paylanması hər kəs üçün 117 milyon von (97,5 min dollar) məbləğində bonus deməkdir. Eyni zamanda, şirkətin sənədlərinə görə, “Samsung Electronics” qazandığı qədər avadanlıq və inkişafa sərmayə qoyur. Şirkətin vitse-prezidenti həmkarlar ittifaqları olmadan siyasətini dayandırdığını elan etdikdən bir il sonra iş hərəkatı Koreyanın texnoloji liderinə köklənməyə başladı. Hazırda şirkətin 4,5 min işçisi həmkarlar ittifaqları sıralarındadır.**

# Sosial tərəfdaşlar arasında məlumat mübadiləsi

**Fevralın 3-də Avropa İctimai Xidmət İşçiləri Həmkarlar İttifaqları Federasiyası (EPSU) və HOSPEEM birgə Avropa Komissiyası (AK) və səhiyyə sahəsində sosial tərəfdaşlar arasında məlumat mübadiləsi üçün məkan təmin etmək üçün Avropa Sağlamlıq Məlumat Məkanı (EHDS) üzrə onlayn informativ sessiya təşkil edib. Görüşün məqsədi AK-yə mövzunu təqdim etmək və EHDS-nin səhiyyə sektoru və səhiyyə işçiləri üçün təsirlərini müzakirə etmək üçün platforma vermək olub.**




Sessiya iştirakçıları salamlayan EPSU-nun Baş katibi Jan-Villem Qudrianın qısa təqdimatı ilə başlayıb. O vurğulayıb ki, EHDS strukturu cəmiyyətə xidmət etməli və tibbi yardımın keyfiyyətini yüksəltməlidir.

**“DG Sante”nin eksperti Hugo van Haastert AK-nin üzərində işlədiyi hüquqi təklifi izah edib və mövcud Avropa məlumat infrastrukturu haqqında danışıb. O, işçilər və xəstələr üçün daha əlçatan etmək üçün ilkin və ikinci dərəcəli tibbi məlumatların sadələşdirilməsi və birləşdirilməsində EHDS-nin rolunu vurğulayıb.**

Təqdimatdan sonra məlumatların mühafizəsi və məlumatlara bərabər çıxışın və rəqəmsallaşmanın, o cümlədən məqsədyönlü öyrənmə vasitələrinin vacibliyini vurğulayan müzakirələr aparılıb. İştirakçılar onu da qeyd ediblər ki, EHDS çərçivəsində səhiyyə işçilərinin rolu və iştirakı daha çox vurğulanmalıdır.

**İclası “HOSPEEM”in Baş katibi Marta Branka yekunlaşdıraraq, Sahə Sosial Dialoq Komitəsi çərçivəsində informativ iclasın aktuallığını vurğulayıb, təşkilatçılara və iştirakçılara verdiyi töhfələrinə görə təşəkkürünü bildirib.**

Materialları hazırladı: Azər MUSTAFAYEV

ülfat
AZƏRBAYCAN HƏMKARLAR İTTİFAQLARININ QƏZETİ
Son səhifə
CÜMƏ AXŞAMI, 10 FEVRAL 2022-Cİ İL / № 05 (1272)


# Stolüstü tennis turniri keçirilib



**Kənd Təsərrüfatı Nazirliyi (KTN) , Azərbaycan Stolüstü Tennis Federasiyası və KTN Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin birgə təşkilatçılığı ilə aqrar sahədə çalışan əməkdaşlar arasında Gənclər Gününə həsr olunan stolüstü tennis turniri keçirilib.**

Turnirdə birincilik uğrunda KTN-in Mərkəzi Aparatının və nazirliyin tabeli qurumlarının 46 əməkdaşı 8 yarımqrupa bölünərək yarışıblar.

Stolüstü Tennis Federasiyasının böyük zalında keçirilən oyunlar beynəlxalq dərəcəli hakimlər tərəfindən idarə edilib.

KTN Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin sədri Fuad Məmmədov bütün rəqiblərinə qalib gələrək birinci yerə sahib olub. “Aqrar Tədarük və Təchizat” ASC-nin əməkdaşı Eston Zeynalov 2-ci yerə, Qobustan Dövlət Aqrar İnkişaf Mərkəzinin əməkdaşı Rəşad Dəmirov isə 3-cü yerə layiq görülüb.

**Turnirdə ilk üç yeri tutanlara və ən yaxşı qadın iştirakçısı nominasiyası üzrə qalib gələnlərə Fəxri Fərman, pul mükafatı və hədiyyələr verilib. Azərbaycan Stolüstü Tennis Federasiyası tərəfindən də qaliblərə xüsusi mükafatlar təqdim olunub.**

# Paytaxt birinciliyində “Atilla” İK ikinci olub

**Hövsan qəsəbəsində yerləşən Fövqəladə Hallar Nazirliyinin İdman-Sağlamlıq Mərkəzində gənclər (U-21) arasında cüdo üzrə Bakı birinciliyi keçirilib.**



Yarışda paytaxtın müxtəlif klublarından, cəmiyyətlərindən və idman təşkilatlarından 180-ə yaxın idmançı medallar uğrunda mübarizə aparıb.

Paytaxt birinciliyində “Atilla” İdman Klubunun yetirmələri də uğurla iştirak ediblər. Belə ki, İdman Klubunun cüdoçuları Tahir Həsənli (-55 kq.), Vüsal Qələndərzadə (-73 kq.) və Orxan Paşayev (-100 kq.) birinci yeri tutublar. Bəxtiyar Məmmədov (-90 kq.) və Elnur Qasılov (-73 kq.) isə üçüncü pillədə qərarlaşıblar.

Ümumi komanda hesabında “Neftçi” İdman Klubu birinci yeri, “Atilla” İdman Klubu ikinci yeri, “Kanokan- TT” İdman Klubu üçüncü yeri tutub.

**Yarışın təşkilində əsas məqsəd fevralın 25-27-də keçiriləcək Azərbaycan birinciliyinə namizədlərin seçimi, həmçinin gənclər arasında idman vasitəsilə sağlam həyat tərzinin formalaşdırılması, cüdonun kütləviliyinə və təşviqinə nail olmaqdır.**

# Hüquq məsləhətxanası

**Şəhid ailə üzvlərinə hansı təminatlar (güzəştlər) verilir?**

**Qəndab VƏZİROVA, Goranboy rayonu.**

-Şəhid ailəsi statusunu almış ailə üzvlərinə qanunvericiliklə aşağıdakı təminatlar (güzəştlər) müəyyən edilmişdir:

-”Əmək pensiyaları haqqında” Azərbaycan Respublikası Qanununa uyğun olaraq şəhidin ailə üzvünə ailə başçısını itirməyə görə pensiya təyin edilir;

- şəhidin ailə üzvlərinə işçilərin sayı və ya ştatı ixtisar edilərkən işdə saxlanmaqda üstünlük verilir, müəssisənin, idarənin, təşkilatın fəaliyyəti dayandırıldıqda isə onlar işlə təmin olunur;

-sosial iş yerlərinin və işsiz şəxslərin özünüməşğulluğunun, habelə peşə hazırlığının təşkili zamanı şəhidin ailə üzvlərinə üstünlük verilir;

- Azərbaycan Respublikası Vergi Məcəlləsinin 102.1.3.3. maddəsinə əsasən, şəhid olmuş şəxslərin ailə üzvlərinin əldə etdiyi maddi yardımın 20000 manatadək olan hissəsi və 102.1.25-1. maddəsinə əsasən, Vətən müharibəsi iştirakçılarının və Vətən müharibəsində, habelə Vətən müharibəsindən sonra Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda döyüş əməliyyatları və hərbi təxribatlar nəticəsində şəhid ailəsi statusu almış və əlilliyi müəyyən edilmiş şəxslərin banklara və digər kredit təşkilatlarına olan borclarının silinməsindən əldə olunan gəlir vergisindən azaddır;

-mənzil şəraitini yaxşılaşdırmağa ehtiyacı olan şəhid ailələri yaşayış sahəsi ilə birinci növbədə təmin olunurlar;

-şəhid ailəsinə onun arzusuna görə fərdi mənzil tikintisi üçün məqsədli güzəştli ssuda, yaşadığı yerdən asılı olaraq qanunvericilikdə nəzərdə tutulmuş ölçüdə torpaq sahəsi, habelə bağçılıq birliyinə (kooperativə) qəbul zamanı üstünlük verilir;

-həkim reseptləri üzrə dərman almaq üçün müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olmuş qaydada və məbləğdə müavinət verilir;

-dövlət ali, orta ixtisas və peşə təhsili müəssisələrində və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi elmi təşkilatda ödənişli formada təhsil alanlar təhsil haqqını ödəməkdən azad olunurlar;

-tibb müəssisələrinin göndərişi ilə ölkə hüdudları daxilində sanatoriya-kurort müalicəsi ilə müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunmuş qaydada təmin edilirlər;

-sosial iş yerlərinin və işsiz şəxslərin özünüməşğulluğunun, habelə peşə hazırlığının təşkili zamanı onlara üstünlük verilir.

**“Dövlət qulluqçularının pensiya təminatı haqqında” Azərbaycan Respublikası Qanununun 14-cü maddəsinin 14.2. bəndinə əsasən, dövlət qulluqçusu vəfat etdikdə təyin edilmiş pensiyanın 6 aylıq məbləğində dəfn xərci onun ailəsinə ödənilməlidir.**

**Hətta vəfat edən şəxsin pensiyasının 80% onun pensiyaçı həyat yoldaşına şamil edilməlidir. Atam 2021-ci ildə noyabr ayında vəfat etmişdir. Mən Dövlət Sosial Müdafiə Fonduna müraciət etmişəm. Lakin həmin qərarın ləğv edildiyini söylədilər.**

**Mənə dürüst məlumat verilməsini xahiş edirəm.**

**Nicat ƏHMƏDOV, Şamaxı şəhəri.**

-Məktbunuzda qeyd etdiyiniz “Dövlət qulluqçularının pensiya təminatı haqqında”” AR Qanunu 1 yanvar 2006-cı ildə qüvvədən düşmüşdür. Həmin tarixdən dövlət qulluqçularının da pensiya təminatı “Əmək pensiyaları haqqında” qanunla tənzimlənir. Bu, “Dövlət qulluğu haqqında” qanunda da əksini tapmışdır. Qanunun 23-cü maddəsinə əsasən, dövlət qulluqçusunun və onun ailə üzvlərinin pensiya təminatı “Əmək pensiyaları haqqında” qanuna uyğun olaraq həyata keçirilir.

Əmək pensiyaçısı vəfat etdikdə alınmamış pensiya məbləğinin ödənilməsi və dəfn üçün müavinətin verilməsi adıçəkilən Qanunun 42-ci maddəsinə əsasən ödənilir. 42.2-ci maddəyə əsasən, əmək pensiyaçısı vəfat etdikdə, onun ailəsinə pensiyaçının vəfatı tarixinə əmək pensiyasının minimum məbləğinin üç misli məbləğində dəfn üçün müavinət verilir.

Vəfat edən dövlət qulluqçusunun pensiyasının və əmək pensiyasına əlavənin 80 faizinin onun ailə üzvlərinə verilməsi məsələsi də həmin Qanunla tənzimlənir.

Lakin nəzərinizə çatdırırıq ki, “Dövlət qulluğu haqqında” qanunun 32.2-ci maddəsinə əsasən, dövlət qulluqçusu müvafiq qanunvericiliyə uyğun olaraq pensiya yaşına çatmasına görə öz arzusu ilə dövlət qulluğundan çıxdıqda ona qanunvericiliyə uyğun olaraq digər pensiya növünün təyin edilməsindən asılı olmayaraq ümumi qaydada hesablanmış aylıq pensiyanın 6 misli məbləğində birdəfəlik haqq verilir və bu məbləğdən vergi tutulmur.

Göründüyü kimi, pensiya məbləğinin 6 misli dövlət qulluqçusuna vəfat etdikdə yox, pensiya yaşına çatmasına görə öz arzusu ilə dövlət qulluğundan çıxdıqda verilir.

**Sorğuları şərh etdi: AHİK-in Hüquq şöbəsi**

## İTKİ

**Gədəbəy şəhəri ərazisində Məmmədova Sevinc Şirəli qızına məxsus kod 50501004101392 nömrəli həyətyanı torpaq sahəsinin plan və ölçü sənədi itdiyi üçün etibarsız sayılır.**

***

**Gədəbəy şəhəri ərazisində Səfərova Aybəniz Ənvər qızına məxsus kod 50501004100952 nömrəli həyətyanı torpaq sahəsinin plan və ölçü sənədi itdiyi üçün etibarsız sayılır.**

***

**Bakı şəhəri, Nəsimi rayonu T. Həsənov adına 23 nömrəli tam orta məktəbi tərəfindən 2005-ci ildə Əhmədov İbrahim Eldar oğlunun adına verilmiş attestat (B № 161913) itdiyi üçün etibarsız sayılır.**

## ALLAH RƏHMƏT ELƏSİN!

Dövlət İdarələri və İctimai Xidmət İşçiləri HİRK-in sədri Hikmət Osmanov və aparat işçiləri Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, millət vəkili Səttar Möhbalıyevə əzizi
**NADİR ƏSƏDOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Avtomobil Nəqliyyatı və Yol Təsərrüfatı İşçiləri Hİ-nin sədri Hüseyn Kərimov və aparat işçiləri Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, millət vəkili Səttar Möhbalıyevə əzizi
**NADİR ƏSƏDOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Dövlət İdarələri və İctimai Xidmət İşçiləri HİRK-in sədri Hikmət Osmanov və aparat işçiləri MIHI Respublika Komitəsinin Təşkilat işləri və hüquqi məsələlər üzrə şöbəsinin müdiri
**SAMİR ƏHMƏDZADƏNİN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Mədəniyyət İşçiləri HİRK-in Rəyasət Heyətinin üzvləri və aparat işçiləri Respublika Komitəsinin sədri Cəmilə Səttarovaya əzizi
**RAMİZ müəllimin**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Mədəniyyət İşçiləri HİRK-in sədri Cəmilə Səttarova, Rəyasət Heyətinin üzvləri və aparat işçiləri Respublika Komitəsinin Təşkilat işləri və hüquqi məsələlər üzrə şöbəsinin müdiri
**SAMİR ƏHMƏDZADƏNİN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Mədəniyyət İşçiləri HİRK-in sədri Cəmilə Səttarova, Rəyasət Heyətinin üzvləri və aparat işçiləri sahə Hİ Goranboy Rayon Komitəsinin sədri Nizami Abdullayevə həyat yoldaşı
**ELMİRA xanımın**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

“Azərkolxozlararasısağlamlıq” Respublika Birliyinin sədri İmran Rzayev və kollektivi Bərdə rayonunda “Pambıqçı” sanatoriya-profilaktikasının baş həkimi
**CABBAR MƏMMƏDOVUN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Təhsil İşçiləri Azad Hİ Qaradağ Rayon Komitəsinin sədri Zümrüd Rzayeva sahə Hİ Respublika Komitəsinin hüquqşünası Sübut Əsədova qardaşı
**NADİR ƏSƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Təhsil İşçiləri Azad Hİ Mingəçevir Şəhər Komitəsinin sədri Həqiqət Şahmuradova sahə Hİ Respublika Komitəsinin hüquqşünası Sübut Əsədova qardaşı
**NADİR ƏSƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Təhsil İşçiləri Azad Hİ Quba Rayon Komitəsinin sədri İradə İsrailova sahə Hİ Respublika Komitəsinin hüquqşünası Sübut Əsədova qardaşı
**NADİR ƏSƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Təhsil İşçiləri Azad Hİ Göyçay Rayon Komitəsinin sədri Taləhə Cəfərova sahə Hİ Respublika Komitəsinin hüquqşünası Sübut Əsədova qardaşı
**NADİR ƏSƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Təhsil İşçiləri Azad Hİ Ağstafa Rayon Komitəsinin sədri Qoşqar Yaqubov sahə Hİ Respublika Komitəsinin hüquqşünası Sübut Əsədova qardaşı
**NADİR ƏSƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Mədəniyyət İşçiləri Hİ Qazax Rayon Komitəsinin sədri İsgəndər Qurbanov sahə Hİ Respublika Komitəsinin Təşkilat işləri və hüquqi məsələlər üzrə şöbəsinin müdiri
**SAMİR ƏHMƏDZADƏNİN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Mədəniyyət İşçiləri Hİ Qazax Rayon Komitəsinin sədri İsgəndər Qurbanov sahə Hİ Goranboy Rayon Komitəsinin sədri Nizami Abdullayevə həyat yoldaşı
**ELMİRA xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Mədəniyyət İşçiləri Hİ Masallı Rayon Komitəsinin sədri Vəkil İsmayılov sahə Hİ Respublika Komitəsinin Təşkilat işləri və hüquqi məsələlər üzrə şöbəsinin müdiri
**SAMİR ƏHMƏDZADƏNİN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Mədəniyyət İşçiləri Hİ Sabirabad Rayon Komitəsinin sədri Telman Əzimov sahə Hİ Respublika Komitəsinin Təşkilat işləri və hüquqi məsələlər üzrə şöbəsinin müdiri
**SAMİR ƏHMƏDZADƏNİN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Mədəniyyət İşçiləri Hİ Ağstafa Rayon Komitəsinin sədri Zahid Sultanov sahə Hİ Respublika Komitəsinin Təşkilat işləri və hüquqi məsələlər üzrə şöbəsinin müdiri
**SAMİR ƏHMƏDZADƏNİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Mədəniyyət İşçiləri Hİ Tovuz Rayon Komitəsinin sədri Asif Qasımov sahə Hİ Respublika Komitəsinin Təşkilat işləri və hüquqi məsələlər üzrə şöbəsinin müdiri
**SAMİR ƏHMƏDZADƏNİN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

**Baş redaktor:**
AQİL DADAŞOV
**Təsisçi:**
Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası

Qeydiyyat № 147
Tiraj: 7504
Sifariş: 429
Redaksiyanın ünvanı:
Bakı - 1005,
Gənclər meydanı 3
Telefonlar: 492-75-55; 492-42-47

“Azərtürk Bank”
Hesab nömrəsi:
AZ08AZRT3809001944
0000132001
Kod: 5:0:7:6:9:9
VÖEN: 1700349431
İndeks: 0271

Qəzet redaksiyanın kompüter mərkəzində yığılmış, səhifələnmiş və “Azərbaycan” Nəşriyyatında ofset üsulu ilə çap olunmuşdur.
e-mail: ulfet-az@mail.ru
Sərbəst qiymət